

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 05 (695) ■ 5 fevral 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev:

## «Qara Qarayev Azərbaycan xalqının görkəmli nümayəndəsidir, milli fəxrimizdir»

### Bakıda dahi bəstəkar Qara Qarayevin abidəsi açılmışdır

*Fevralın 3-də Bakının 28 May küçəsində Azərbaycan mədəniyyətinin ən görkəmli nümayəndələrindən biri, bəstəkar və pedaqoq, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Qara Qarayevin abidəsi açılmışdır. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişlər.*




Prezident İlham Əliyev mərasimdə çıxış etmiş, Qara Qarayevin Azərbaycan xalqının böyük oğlu, böyük şəxsiyyət və dahi bəstəkar olduğunu bildirmişdir. O qeyd etmişdir ki, Qara Qarayevin fəaliyyəti sayəsində Azərbaycanı sovet məkanında və dünyada daha da yaxından tanımışlar. Onun yaşayıb-yaratdığı dövrdə Azərbaycan müstəqil olmasa da xalqımız incəsənət, ədəbiyyat, musiqi sahəsində öz istedadını dünya ictimaiyyətinin diqqətinə çatdıra bilmişdir.

Prezident İlham Əliyev bildirmişdir ki, Qara Qarayevin əsərləri ölməzdir: «Onlar bu gün də yaşayır, bundan sonra da yaşayacaqdır, əbədi yaşayacaqdır. Bir sözlə, bu böyük şəxsiyyət bizim milli fəxrimizdir. Azərbaycan klassik musiqisinin inkişafında onun danılmaz və müstəsna xidmətləri vardır. Eyni zamanda, bildiyiniz kimi, o, milli musiqiyə də çox bağlı idi. Xalq mahnıları, bizim milli musiqimiz onun fəaliyyətinə, yaradıcılığına böyük təsir göstərmişdir».

Qara Qarayevin həm də gözəl müəllim olduğunu qeyd edən dövlətimizin başçısı dahi bəstəkarın davamçılarının fəaliyyəti sayəsində Azərbaycan musiqi mədəniyyətinin zənginləşdiyini diqqətə çatdırmışdır: «Ulu öndər Heydər Əliyev ilə onların çox yaxın münasibətləri var idi. Qarşılıqlı hörmət, qarşılıqlı rəğbət əsasında qurulmuş bu münasibətlər nümunəvi xarakter daşıyırdı. Mən də gənclik, yeniyetməlik dövrümdə bir neçə dəfə onların bir yerdə təşkil etdiyi məclislərdə iştirak edirdim. O səmimi münasibətləri görürdüm, duyurdum və belə də olmalı idi. Çünki bir daha deməк istəyirəm ki, Qara Qarayev Azərbaycan xalqının görkəmli nümayəndəsidir, milli fəxrimizdir. Hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr edir ki, onun Qara Qarayev kimi böyük nümayəndəsi olmuşdur və vardır».

Prezident İlham Əliyev Qara Qarayevin Sovet İttifaqı çərçivəsində ən yüksək mükafatlarla təltif edildiyini bildirmişdir: «Haqlı olaraq təltif edilmişdir, gənc yaşlarında bu mükafatlara layiq görülmüşdür. Ona ən yüksək ordenlər, ən yüksək mükafatlar verilmişdir. Əlbəttə, əgər o, bizim günlərimizdə yaşasa idi, müstəqil Azərbaycan dövlətinin ən böyük mükafatları ilə təltif olunardı. Əfsuslar olsun ki, o, həyatdan tez getdi. Daha çox yaşaya bilərdi, daha çox yarada bilərdi. Ancaq onun yaratdığı əsərlər Azərbaycan musiqisinin zirvəsidir. Biz hamımız bir daha onun ölməz xatirəsi qarşısında baş əyirik. Mən çox şadam ki, bu gün bu gözəl yerdə, tarixi yerdə, onun yaşadığı evin yaxınlığında bu gözəl abidə açılır».

Dövlətimizin başçısı Azərbaycan musiqi mədəniyyətinin çox zəngin olduğunu, xalq musiqimizin, muğam sənətinin ümumdünya musiqi sənətinin zirvəsi hesab edildiyini vurğulamışdır: «Bu gün Azərbaycan musiqisini inkişaf etdirən bəstəkarlar, sənət adamları öz töhfəsini verirlər ki, bu ənənələr davam etsin, bu ənənələr kəsilməsin, istedadlı musiqiçilər, bəstəkarlar yetişsin. Bu məqsədlə Azərbaycan dövləti əlindən gələni edir və edəcəkdir. Azərbaycanın musiqi həyatı zəngindir, ölkəmizdə müxtəlif beynəlxalq tədbirlər, dünya səviyyəli festivallar, müsabiqələr keçirilir. Eyni zamanda, biz Azərbaycan musiqisini dünyada da təqdim edirik. Müxtəlif konsertlər, müsabiqələr, festivallar keçirilir. Yəni, hesab edirəm ki, bu gün Azərbaycan, o cümlədən bu istiqamətdə də uğurla inkişaf edir. Mədəniyyətlə, tarixlə bağlı olan bütün tədbirlər yüksək səviyyədə keçirilir. Bizim tarixi irsimiz qorunub saxlanılır. Memarlıq abidələri bərpa edilir. Muzeylər, teatrlar, konsert salonları təmir edilir, tikilir. Bakıda, bölgələrdə mədəniyyət mərkəzləri açılır. Yəni, bu, Azərbaycan dövlətinin bu sahəyə göstərdiyi diqqətin nəticəsidir».

Prezident İlham Əliyev hər bir ölkənin inkişafı üçün onun mədəni həyatının xüsusi əhəmiyyət daşıdığını da bildirmişdir: «Biz uzun illər, əsrlər boyu müstəqillikdən məhrum idik. Ancaq müstəqilliyə olan sevgimizi ürəyimizdə yaşatmışdıq. Musiqimiz, ana dilimiz, ədəbiyyatımız, incəsənətimiz bizi bir xalq kimi qorudu və bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir. Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən dövlətdir».

Mərasimdə çıxış edən Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti Fərhad Bədəlbəyli son illər mədəniyyət sahəsində görülən mühüm işlərin əhəmiyyətindən danışmış, incəsənət xadimlərinin heykəllərinin ucaldılmasını, onların xatirəsinin əbədiləşdirilməsini Azərbaycan dövlətinin musiqiyə, incəsənətə olan diqqət və qayğısından nəticəsi kimi qiymətləndirmişdir. Qara Qarayevin Şostakoviç, Stakovski, Stravinski və digər dahi insanlarla ünsiyyətdə olduğunu xatırladan natiq təkliflə də çıxış etmişdir. «2018-ci ildə Qara Qarayevin 100 illiyi olacaqdır. Bizim belə arzumuz vardır. Onun məşhur «İldırımlı yollarla» baleti dünyanın böyük teatrlarının birində - ya Londonda, ya Parisdə, ya da Praqada tamaşaya qoyulsun. Çünki deyirlər ki, Afrika mövzusu müasir deyil, əksinə, indi Afrika od içindədir. Mövzu çox müasirdir. Musiqi də dahiyanə bir musiqidir».

Qara Qarayevin tələbəsi, xalq artisti, bəstəkar Arif Məlikov yeni açılan heykəlin onun daha yaxından tanınmasına, əsərlərinin səslənməsinə öz təsirini göstərəcəyini bildirmiş, dahi bəstəkarın tələbəsi olması ilə fəxr etdiyini xatırlatmışdır.

Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar isə Qara Qarayevi Azərbaycanın yetişdirdiyi ən işıqlı insanlardan biri adlandırmışdır: «Azərbaycan ədəbiyyatının klassikləri Nizamiyə və Füzuliyə müraciət edərək «Leyli və Məcnun» simfonik poemasını və «Yeddi gözəl» baletini yaratdı. Dünya xalqlarının musiqisinə müraciət edərək «Alban» rapsodiyasını, «Vyetnam» süitasını, «Don Kixot» simfonik qravürlərini və «İldırımlı yollarla» baletini yaratdı. Çağdaş dünya musiqisinin ən yeni texnologiyalarına müraciət edərək «Üçüncü simfoniya»sını və skripka konsertini yaratdı. Amma nə yaradıbsa, Qara Qarayev ilk növbədə Azərbaycan bəstəkarı idi. Azərbaycana dünya musiqisini gətirirdi və dünyaya Azərbaycan musiqisinin qədimlərdən gələn ən zəngin ənənələrini, ən böyük sərvətlərini çatdırırdı».

Qara Qarayevin oğlu, Çaykovski adına Moskva Dövlət Konservatoriyasının professoru, əməkdar incəsənət xadimi, bəstəkar Fərəc Qarayev dahi bəstəkarın xatirəsinin əbədiləşdirilməsində dövlətin göstərdiyi diqqətə görə ölkə başçısına və Azərbaycan xalqına dərin minnətdarlığını bildirmişdir. O, qeyd etmişdir ki, Azərbaycanda həm Qara Qarayev prospekti, həm metro stansiyası, həm də «Qara Qarayev» teploxodu vardır, Dövlət kamera orkestri də onun adını daşıyır. Hazırda çox gözəl incəsənət məktəbinə Qara Qarayevin adı verilmişdir. Bu gün isə onun abidəsi açılmışdır: «Mərhum bəstəkara bu hörmət və ehtiram ötən əsrin 80-90-cı illərində göstərilmişdir. O vaxt respublikaya, daha sonra müstəqil Azərbaycana Heydər Əlirza oğlu Əliyev rəhbərlik edirdi. Cənab Prezident, həmin ənənənin bu gün davam etməsinə görə biz minnətdarlıq və təşəkkür dolu ən səmimi sözlərimizi ifadə edib, Sizə «çox sağ olun» deyirik. Hazırda çox gözəl incəsənət məktəbinə Qara Qarayevin adı verilmişdir. Bu gün bu gözəl abidənin açılışıdır. Fikrimcə, Azərbaycan məşhur oğlu üçün maksimum nə mümkündürsə, onu da etmişdir. Çox sağ olun, cənab Prezident».

Sonra Prezident İlham Əliyev və xanımı abidənin önünə gül dəstəsi qoymuşlar.

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva musiqi ictimaiyyətinin nümayəndələri ilə xatirə şəkli çəkdirmiş, onlarla səmimi söhbət etmişlər.

***Qeyd:*** *Qara Qarayevin adı görkəmli bəstəkar və pedaqoq kimi Azərbaycanın mədəniyyət və incəsənət tarixinə düşüb. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı və bir sıra digər nüfuzlu mükafatların laureatı, SSRİ Ali Sovetinin deputatı, Azərbaycan Elmlər Akademiyasının akademiki olmuş Qara Qarayev nəinki Azərbaycan mədəniyyətinə, eləcə də dünya musiqi xəzinəsinə əvəzsiz töhfələr verib. Onun geniş şöhrət qazanmış və musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuş baletləri, simfonik poemaları, simfoniyaları, kamera-instrumental əsərləri, kinofilm və teatr tamaşalarına yazılmış musiqiləri dünya mədəniyyətinin incilərindən hesab edilir.*

## Azərbaycan ilə Pakistan arasında əlaqələr uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xalid Usman Qayserin etimadnaməsini qəbul etmişdir. Xalid Usman Qayser etimadnaməsini Prezident İlham Əliyevə təqdim etmişdir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etmişdir. Ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı səfirin Azərbaycandakı diplomatik fəaliyyəti dövründə bu münasibətlərin daha da möhkəmləndiriləcəyinə əminliyini ifadə etmişdir. Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini demişdir. Əlaqələrimizin iqtisadi, mədəni, humanitar və digər sahələrdə də genişləndiriləcəyinə ümidvar olduğunu bildirən Prezident İlham Əliyev bunun regional əməkdaşlıq baxımından da önəmini qeyd etmişdir. Dövlətimizin başçısı ölkələrimizin BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsini yüksək dəyərləndirmişdir.

Səfir Xalid Usman Qayser Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarını və ən xoş arzularını Prezident İlham Əliyevə çatdırmışdır. Diplomat qeyd etmişdir ki, əsası dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-Pakistan əlaqələrinin daha da möhkəmləndirilməsində səylərini əsirgəməyəcəkdir. Səfir Heydər Əliyev Fondu tərəfindən ölkəsində həyata keçirilən humanitar layihələrin əhəmiyyətini minnətdarlıqla vurğulamışdır. Xalid Usman Qayser Pakistanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyəcəyini bildirmişdir.

Görüşdə ölkələrimiz arasında əlaqələrin sənaye, hərbi-texniki əməkdaşlıq, müdafiə, əczaçılıq, informasiya-kommunikasiya texnologiyaları, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## 11 Fevral - Azərbaycanın vergi xidməti işçilərinin peşə bayramı günüdür

## Vergi forumları yeni səmərəli təşəbbüslər üçün açıq meydandır

Sabah «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda III Vergi Forumu öz işinə başlayır. Bununla üçüncü dəfədir ki, təşkil olunan forumda müxtəlif dövlət orqanlarının, beynəlxalq vergi və maliyyə qurumlarının, qeyri-hökumət təşkilatlarının, habelə kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edəcəklər.

*Davamı 2-ci səhifədə*

2 Vergilər Nazirliyində iclas keçirilmişdir

3 Azərbaycanın vergi xidməti orqanları kreativ yeniliklərə meyillidir

4 Nağdsız ödənişlərlə bağlı yeni layihə

5 2014-2017-ci illərdə Azərbaycanın inkişaf prioritetləri

# Vergilər Nazirliyində iclas keçirilmişdir

*Vergilər Nazirliyində ərazi vergi orqanlarının və Bakı Şəhər Vergilər Departamentinin funksional fəaliyyət sahələri ilə bağlı iclas keçirilmişdir. İclası giriş sözü ilə vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov açmışdır.*




Məruzə ilə çıxış edən Daxili təhlükəsizlik Baş İdarəsinin şöbə rəisi Şahin Səfərov Vergilər Nazirliyinin elektron informasiya sistemlərinin məlumatları əsasında 2013-cü ildə 2, 11, 12 saylı ərazi vergilər departamentlərinin, 5, 6, 8, 9, 10, 14 saylı ərazi vergilər idarələrinin və Bakı Şəhər Vergilər Departamentinin fəaliyyətinin auditi aparılarkən yerli vergi orqanlarının işində mövcud vergi potensialından tam istifadə olunmadığının müəyyən edildiyini bildirmişdir. Bir sıra hallarda vergi qanunvericiliyinin və vergi inzibatçılığının tətbiqinin, vergi uçotu və vergi nəzarəti işlərinin zəif aparıldığı, vergi nəzarəti tədbirlərinin müxtəlif sahələr üzrə tam və lazımi səviyyədə həyata keçirilməməsi faktlarının da aşkarlandığı qeyd edilmişdir.

lil proseslərinin aparılması işlərinə daha ciddi yanaşmalıdırlar.

Audit və operativ nəzarət sahələri üzrə nazirin müşaviri İlqar Əhmədov yerli vergi orqanlarının audit və operativ nəzarət strukturları tərəfindən aparılmış nəzarət tədbirlərinin həyata keçirilməsində ləngimələrə yol verildiyini, Vergilər Nazirliyinin üst qurumlarının göstəriş məktublarının icra vəziyyətinin qənaətbəxş olmadığını qeyd etmiş, operativ vergi nəzarəti tədbirlərinin vaxtında həyata keçirilməsi və risk meyarları müəyyən edilmiş ödəyicilərdə xronometraj metodu ilə müşahidələrin aparılmasının zəruriliyini vurğulamışdır. İ.Əhmədov regionlarda POS-terminalların quraşdırılması və istifadə olunmasına nəzarət məsələlərinə də toxunmuş, ölkənin maliyyə sistemində şəffaflığın artırılması məqsədilə nağdsız hesablaşmaların səviyyəsinin yüksəldilməsinə ciddi fikir verilməsinin vacibliyini qeyd etmişdir.

nın, xüsusilə də qeyri-neft-qaz sektoru üzrə daxilolmaların proqnoz göstəricilərinin icrasının vacibliyini qeyd etmiş, ərazi vergi orqanlarının nəzarət dairəsinə aid olan rayon və şəhərlərin yerli büdcələrinin tam icrası baxımından əlavə tədbirlər görülməsinin vacib olduğunu vurğulamışdır.

İclasda səsləndirilmiş problemlərə toxunan S.Məmmədxanov mövcud çatışmazlıqlara yol açan səbəblərin tezliklə aradan qaldırılması üçün ərazi vergi orqanlarının öz işində ciddi dönüş yaratmalarının vacibliyini bildirərək, yerli vergi orqanlarında riskli hesab olunan vergi ödəyicilərinin



Bildirilmişdir ki, səyyar vergi yoxlamalarının təyin edilməsində, yoxlamalar nəticəsində əlavə hesablanmış vergi məbləğlərinin və tətbiq olunmuş maliyyə sanksiyalarının büdcəyə alınmasında nöqsanlara yol verilmiş, vergi borcu olan vergi ödəyicilərinin borclarının dövlət büdcəsinə alınması üçün mümkün olan potensial imkanlar tam səfərbər edilməmişdir.

İclasda çıxış edən İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəisi İlkin Vəliyev bildirmişdir ki, yerli vergi orqanları mövcud informasiya və vergi ödəyicilərinin dövriyyə məlumatları bazasından istifadə etməklə vergi potensialının kifayət qədər artırılmasına nail ola, vergiyə cəlb edilməli dövriyyələrin yayındırılmasının, faktiki vergi ödəmələrinin azaldılması hallarının qarşısını ala bilərlər. Bunun üçün onlar iqtisadi təh-

İclasda hər bir yerli vergi orqanı üzrə yol verilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı görüləsi işlər ətraflı müzakirə edilmişdir. 3, 6, 9 və 10 saylı ərazi vergilər idarələrinin rəisləri çıxış edərək mövcud nöqsanların aradan qaldırılması üçün görüləcək tədbirlər barədə məlumat vermişlər.

İclasa yekun vuran vergilər nazirinin müavini Sahir Məmmədxanov 2014-cü ildə vergi orqanları qarşısında mühüm vəzifələr durduğunu, vergi daxilolmaları-

nəzarət tədbirləri ilə əhatə edilməsi, vergi potensialının azaldılması hallarının müəyyən olunaraq qarşısının alınması, vergi yoxlamaları ilə əhatə olunmuş dövriyyələrə və vergi bəyannaməsini təqdim etməyən vergi ödəyicilərinə nəzarətin gücləndirilməsi kimi məsələlərə daha ciddi yanaşılması ilə bağlı tapşırıqlarını vermişdir.

Nazir müavini qarşıdakı dövrdə əmək münasibətləri sahəsinə diqqətin artırılmasının zəruriliyini qeyd edərək, vergi ödəyicilərinin işçilərlə əmək müqavilələri bağlaması üzərində nəzarət tədbirlərinin, bu zaman əməkhaqqı fondunun vergi nəzarətində saxlanılmasının, eləcə də vergi ödəyiciləri ilə vergi partnyorluğu sazişlərinin bağlanması məsələlərində təleskənliyə və formalizmə yol verilməməsinin vacibliyini vurğulamışdır.

# Vergi forumları yeni səmərəli təşəbbüslər üçün açıq meydandır

**Əvvəli 1-ci səhifədə**

Bu cür forumların ənənə halını alması göstərir ki, nazirlik öz peşə bayramını trafaretdən, şablondan uzaq formada - kreativ vasitələrlə, faydalı müzakirələr şəraitində keçirməyə üstünlük verir. Vergi sisteminin müxtəlif aspektləri üzrə aktual və səmərəli müzakirələrin aparıldığı, faydalı təkliflərin və ideyaların səsləndirildiyi belə tədbirlər həm də Vergilər Nazirliyinin mütərəqqi iş üslubunun məntiqi nəticəsi sayılmalıdır.

Son illər Vergilər Nazirliyinin təşkilatçılığı ilə keçirilən çoxsaylı konfrans, «dəyirmi masa» və beynəlxalq forumlar bir sıra mütərəqqi cəhətləri ilə təkcə vergi ödəyicilərinin, biznes təmsilçilərinin deyil, ümumən geniş ictimaiyyətin böyük marağına səbəb olmuşdur. Beynəlxalq təcrübənin öyrənilməsi, dünyanın vergi sahəsində ixtisaslaşmış qurumları ilə yeni əməkdaşlıq mexanizmlərinin müzakirəsi üçün bu cür tədbirlərin xüsusi əhəmiyyəti var.

Vergi mühitinin liberallaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması və zamanın tələbindən irəli gələn digər islahatları keçirərkən ictimai rəyi nəzərə alan nazirlik hər bir təklifə həssaslıqla, diqqətlə yanaşır. Əksər hallarda bu cür konfrans və tədbirlərdə səsləndirilmiş faydalı təkliflər, ideyalar vergi qanunvericiliyinin təkmilləşdirilməsi zamanı nəzərə alınır. Bu, Vergilər Nazirliyinin həyata keçirdiyi islahatların və tətbiq etdiyi yeniliklərin vergi ödəyicilərinin marağına hesablandığını, eyni zamanda onun açıq, şəffaf, çevik bir dövlət qurumu olduğunu göstərir.

Xatırladaq ki, hələ 2012-2013-cü illərdə keçirilmiş I və II Vergi forumları kifayət qədər faydalı müzakirələrlə yadda qalmış, tədbir iştirakçılarının əksəriyyətinin çıxışlarında son illər ölkəmizin vergi sistemində ciddi islahatların aparıldığı, respublikada dayanıqlı, yeni dövrün tələblərinə cavab verən vergi inzibatçılığının formalaşdığı, müasir texnologiyaların tətbiq edildiyi xüsusi vurğulanmışdı. Həmçinin, müstəqillik illərində vergi siyasətinin əsas istiqamətlərinin, vergilərin sayının və dərəcələrinin optimal səviyyəsinin müəyyənləşdirildiyi, ölkədə vergi yükünün aşağı salındığı, vergi menecmentinin müasirləşdirildiyi qeyd olunmuşdu.

Bu forumlardan hasil olun ümumi qənaət ondan ibarətdir ki, son illər respublikada beynəlxalq prinsiplərə uyğun liberal vergi sistemi formalaşdırılmış, Azərbaycanda sərmayəçilər üçün cəlbedici, sadə, eyni zamanda şəffaf və sabit vergi sisteminin qurulması istiqamətində əhəmiyyətli tədbirlər görülmüş, vergi ödəyicilərinə göstərilən xidmətlər təkmilləşdirilmişdir. Ötən il keçirilmiş II Forumun iştirakçıları Prezident İlham Əliyevin rəhbərliyi ilə vergi xidmətinin son illər əsaslı modernləşmə prosesindən keçdiyini, texnoloji imkanların genişləndiyini, vergi inzibatçılığının təkmilləşdirildiyini razılıqla qeyd etmişlər. Forumda iştirak edən əcnəbi ekspertlər Azərbaycanın vergi sisteminin mütərəqqi model kimi qəbul edilərək bir sıra MDB ölkələrində tətbiq olunduğunu mühüm nailiyyət kimi dəyərləndirmişdilər.

Hazırda vergi sistemində həyata keçirilən islahatların əsas hədəfləri xidmətin texnoloji baxımdan inkişafına nail olmaq, vergi prosedurlarını sadələşdirməklə biznesin inkişafına dəstək vermək, vergi ödəyicilərinin könüllü əməletmə səviyyəsini yüksəltmək, habelə nağdsız ödənişlərin genişlənməsini təmin etmək, vergi ödəyiciləri ilə münasibətləri partnyorluq müstəvisində qurmaqdır. Bu baxımdan, respublikanın vergi sisteminin hazırkı vəziyyəti və gələcək inkişaf perspektivlərinə həsr olunmuş növbəti forumun da əhəmiyyətli olacağını söyləmək mümkündür.

Belə bir tədbirin təşkilində məqsəd biznes və vergi orqanlarının nümayəndələri arasında açıq dialoqu daha da genişləndirmək, qarşıda duran vəzifələri, əməkdaşlığın müasir, faydalı formalarını müəyyənləşdirməkdir. Forum «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası əsasında təsdiq edilmiş «2013-2020-ci illərdə vergi sisteminin inkişafı strategiyası»ndan irəli gələn vəzifələrin müzakirəsi baxımından da əhəmiyyətli olacaqdır.

**Samir MUSTAFAYEV**

# Vergidən yayındı, cinayət məsuliyyətinə cəlb olundu

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən araşdırılan çoxepizodlu cinayət işi zamanı Beyləqan rayonunun Dünyamalılar kənd sakini Nadir Camal oğlu Ağayevin 2009-2011-ci illər ərzində «Kvant-L», «Təsərrüfat-İnventar Topdansatış», «Kaspian», «Baykal-N», «İntellekt-2011», «Berkut-2012» və digər müəssisələrin direktoru vəzifəsində işləyərkən vergiləri dövlət büdcəsindən yayındırdığı sübuta yetirilmişdir. N.Ağayev sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu halda rəhbərlik etdiyi müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun aparılması vəzifəsini də öz üzərinə götürmüşdür. O, vergi orqanlarına təqdim etdiyi bəyannamələrə gəlirlər və xərclər barədə bilərəkdən təhrif olunmuş məlumatları daxil etməklə, eləcə də bəyannamələri təqdim etməməklə Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 16.1.6, 53,1, 72, 77.3, 78.1, 177.1.3 107-110-cu maddələrinin tələblərini pozaraq külli miqdarda - 1 milyon 792 min 679 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməmişdir.

Bundan başqa, N.Ağayev xüsusi razılıq (lisenziya) almadan I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin aparılması ilə məşğul olmuş, bu qanunsuz sahibkarlıq fəaliyyəti sayəsində 150 min 913 manat məbləğində gəlir əldə etmişdir. Bununla da Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192.2.2 -ci və 213.2.2-ci maddələrində nəzərdə tutulan cinayət əməllərini törətmişdir.

İbtidai araşdırma zamanı toplanmış təkzibolunmaz sübutlarla - ilkin mühasibat sənədləri, şahid ifadələri, tanınma protokolları, keçirilmiş baxışlar, ekspertiza rəyləri və digər istintaq dəlilləri ilə N.Ağayevin qeyd olunan cinayətləri törətdiyi təsdiq edilmişdir. 23 dekabr 2013-cü il tarixdə N.Ağayevin təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar qəbul edilmiş, lakin istintaqdan qaçıb gizləndiyindən qərarı ona elan etmək mümkün olmamış, barəsində axtarış elan edilmişdir. Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşlarının keçirdikləri axtarış tədbirləri nəticəsində N.Ağayev 15 yanvar 2014-cü il tarixdə tutularaq istintaqa təhvil verilmiş və elə həmin gün Yasamal Rayon Məhkəməsi tərəfindən barəsində həbs qətimkan tədbiri seçilmişdir. N.Ağayev dindirilərkən təqsirini boynuna almışdır.

## xarici mətbuat səhifələrində

# TAP layihəsi İtaliyanın enerji infrastrukturunu genişləndirəcək

*İtaliyanın «Linkiesta» onlayn jurnalında Azərbaycanın təbii qazını Avropaya nəql edəcək TAP layihəsi ilə bağlı məqalə yerləşdirilmişdir.*

Yazıda «Cənub» qaz dəhlizi layihəsinin strateji önəmi barədə məlumat verilir. Vurğulanır ki, enerji təchizatının şaxələndirilməsi baxımından Avropa üçün mühüm əhəmiyyət kəsb edən layihənin reallaşdırılması uzun illərdir müzakirə olunurdu. Nəhayət, ötən ilin sonunda Azərbaycan qazını Avropaya daşıyacaq boru kəməri layihəsi - TAP seçilərək, «Şahdəniz-2» üzrə yekun investisiya qərarı imzalanmışdır. Layihənin payçı şirkətləri, texniki göstəriciləri, qazın nəqli marşrutu ilə bağlı məlumatların yer aldığı məqalədə qeyd olunur ki, TAP Xəzər dənizinin təbii qaz ehtiyatlarının Avropa bazarına çıxarılması istiqamətində önəmli addımdır.

Müəllif TAP layihəsinin İtaliya üçün əhəmiyyətinə də toxunmuşdur. Bildirilmişdir ki, layihənin reallaşdırılması nəticəsində İtaliya enerji infrastrukturunu şaxələndirmək imkanı qazanacaqdır.

Yazıda Azərbaycanda həyata keçirilən neft strategiyası yüksək qiymətləndirilir. Qeyd olunur ki, 1990-cı illərin ortalarından etibarən Azərbaycan hökuməti enerji sektorunu xarici investorlar üçün açıq elan etmişdir. Bu da iqtisadi inkişafa müsbət təsirini göstərməkdədir.

Məqalədə, həmçinin, birgə həyata keçirilən layihələrin türkdilli dövlətlər arasında münasibətlərin güclənməsinə töhfə verdiyi qeyd olunur. Bu baxımdan, Trans-Anadolu təbii qaz boru xətti layihəsinin önəmi xüsusi vurğulanır.

# Azərbaycanın enerji layihələri geosiyasi və geoiqtisadi əhəmiyyət daşıyır

*Argentinanın beynəlxalq ticarət üzrə ixtisaslaşmış «Megatrade» jurnalının yanvar buraxılışının enerji rubrikası bütövlüklə Azərbaycanın enerji layihələrinə həsr edilmişdir.*

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilmişlər ki, həmin rubrikada dərc edilmiş «Əsrin yeni müqaviləsi: Xəzərin «Şahdəniz-2» yatağından qazın Avropaya nəqli» adlı məqalə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Şahdəniz» yatağının işlənməsinin ikinci mərhələsinə dair imzalanmış yekun investisiya qərarından bəhs edir. Məqalədə «Şahdəniz-2» ilə yanaşı, TANAP və TAP layihələrindən də söhbət açılır, onların Azərbaycanın inkişafına və layihəyə cəlb olunmuş ölkələr arasındakı əməkdaşlığa verəcəyi töhfələr qeyd edilir.

Yazıda bu layihələrin geosiyasi və geoiqtisadi əhəmiyyəti, habelə Avropaya qaz təchizatı mənbələrinin şaxələndirilməsinin faydaları vurğulanır.

Jurnalın enerji rubrikasında səfir Məmməd Əhmədzadənin yanvarın 15-də Argentinanın «El Cronista» qəzetində dərc edilmiş «Azərbaycan Avropanın enerji xəritəsini dəyişir» adlı məqaləsi, həmçinin «Şahdəniz-2», TAP və TANAP layihələri barədə texniki göstəricilər, onların həyata keçirilməsi çərçivəsində görüləcək işlərlə bağlı məlumatlar, müvafiq xəritə və şəkillər də yer almışdır.



# Azərbaycanın vergi xidməti orqanları kreativ yeniliklərə meyillidir



*Xəbər verdiyimiz kimi, Qazaxıstanın Xəzinədarlıq və Vergi komitələrinin əməkdaşlarından ibarət nümayəndə heyəti təcrübə mübadiləsi məqsədilə Azərbaycana səfər etmiş, ölkəmizdə vergi xidməti orqanlarınını fəaliyyəti ilə tanış olmuşlar. Qazaxıstanın Vergi Komitəsinin Vergi qanunverciliyinin izahı və inkişafı idarəsinin rəisi Aysulu Burambayeva qəzetimizə müsahibəsində səfərin yekunları və iki ölkənin vergi xidməti orqanları arasında əməkdaşlığın gələcək perspektivləri ilə bağlı fikirlərini bölüşmüşdür.*

***- Aysulu xanım, Qazaxıstan və Azərbaycanın vergi xidməti orqanları arasında bu cür işgüzar görüşlərin dövlətlərimiz səviyyəsində ikitərəfli iqtisadi əlaqələr baxımından əhəmiyyətini necə dəyərləndirirsiniz?***

- Şübhəsiz, müasir dövrdə hər hansı ölkənin davamlı iqtisadi inkişafını səmərəli və mükəmməl vergi sistemi olmadan təsəvvür etmək mümkün deyildir. Bu mənada, həm Azərbaycanın, həm də Qazaxıstanın vergi xidməti orqanlarının iş təcrübəsinin öyrənilməsi qarşılıqlı təcrübə mübadiləsi baxımından xüsusi aktuallıq kəsb edir. Belə görüşlər vergitutma sahəsində meydana çıxan məsələlərin həllinə fərqli yanaşmaları öyrənmək, müəyyən mövzular ətrafında təhlillər, müqayisələr aparmaq, qabaqcıl təcrübələri bölüşmək baxımından hər iki ölkənin vergi xidməti orqanları üçün əhəmiyyətlidir.

***- Bakıda olduğunuz müddətdə Vergilər Nazirliyinin müxtəlif strukturlarında görüşlər keçirdiniz. Azərbaycanın vergi sistemi haqqında təəssüratlarınızı bilmək maraqlı olardı...***

- Qazaxıstan nümayəndə heyətinin üzvlərinin əksəriyyəti ilk dəfə idi ki, Azərbaycanda səfərdə olurdular. Azərbaycanın və Bakı şəhərinin dinamik inkişafını görmək bizdə xoş təəssürat yaratdı. Böyük tarixi keçmişi, mütərəqqi ənənələri, möhtəşəm tikililəri, qonaqpərvər insanları olan ölkəniz dinamik inkişaf edərək müasirləşir.

Azərbaycanın vergi orqanları orqanlarının fəaliyyəti də müasir dövrün tələblərinə uyğun qurulmuşdur. Ümumilikdə, nazirliyin fəaliyyətində müasir dövrün çağırışları nəzərə alınır, mütərəqqi texnologiyalar, idarəetmə təcrübələri tətbiq olunur. Hesab edirəm ki, Vergilər Nazirliyinin vergi inzibatçılığı, vergi ödəyicilərinə xidmət, habelə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində çox mühüm nailiyyətləri var. Ölkənizin vergi sistemi özündə dünyanın mütərəqqi təcrübələrini əks etdirir.

***- Azərbaycanın vergi sahəsindəki hansı təcrübəsinin daha cəlbedici olduğu qənaətindəsiniz?***

- Bakıda keçirdiyimiz görüşlər zamanı Azərbaycanın vergi sistemində xüsusilə elektron hesab-fakturalarının, ƏDV depozit hesabının tətbiqi ilə bağlı məsələləri geniş müzakirə etdik. Azərbaycanın vergi xidməti orqanlarının yüksək peşəkarlığı ilə yanaşı, onların vergi inzibatçılığı sahəsində kreativ yeniliklərə meyilliliyini və bu yenilikləri praktik olaraq reallaşdırmaq bacarıqlarını xüsusi vurğulamaq istərdim. Ölkənizin ƏDV depozit hesabının, habelə elektron hesab-fakturaların tətbiqi sahəsində təcrübəsi ilə daha yaxından tanış olmaq, mütərəqqi yenilikləri öz fəaliyyətimizdə tətbiq etmək niyyətindəyik.

*Vergilər Nazirliyinin vergi inzibatçılığı, vergi ödəyicilərinə xidmət, habelə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində çox mühüm nailiyyətləri var*

***- Qazaxıstanın verci qanunvericiliyinin təkmilləşdirilimәsi istiqamətnidə hansı tədbirlər görülür?***

- Vergi qanunvericiliyinin təkmilləşdirilməsi vergi ödəyicilərinə vergi öhdəliklərinin könüllü yerinə yetirilməsi üçün əlverişli şəraitin yaradılmasına, habelə vergidən yayınma hallarının qarşısının alınmasına xidmət edir. Son zamanlar vergi inzibatçılığındakı dəyişikliklər kiçik biznes subyektlərinin vergi öhdəliklərinin sadələşdirilməsinə, xüsusi vergi rejiminin tətbiqinə, vergi bəyannamələrinin doldurulmasına və göndərilməsinə nəzarətin təşkilinə, vergi sahəsində hüquqpozmalara qarşı inzibati tədbirlərin gücləndirilməsinə xidmət edir.

***- Hazırda əksər ölkələrdə ümumi pul dövriyyəsində nağdsız ödənişlərin xüsusi çəkisinin yüksəldilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. Qazaxıstanda bu sahədə vəziyyət necədir? Nağdsız ödənişlərin stimullaşdırılması istiqamətində hansı addımılar atılır?***

- 2012-ci ildə nağd pul dövriyyəsinin həcminin azaldılması, nağdsız ödənişlərin genişləndirilməsi ilə bağlı ölkənin qanunvericiliyinə əlavə və dəyişikliklər edilmişdir. Həmin dəyişikliklərdə, əsasən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin POS-terminalların tətbiqi, istehlakçılara nağdsız formada ödənişlərin aparılması imkanının yaradılması ilə bağlı öhdəlikləri əksini tapmışdır. Bu şərtlərə əməl etməyənlərə qarşı qanunvericilikdə sərt inzibati tədbirlərin görülməsi nəzərdə tutulur. Bundan başqa, nağd ödənişlərin yuxarı həddi üçün limit müəyyənləşdirilmişdir və hazırda bu məbləğ 11 min ABŞ dolları təşkil edir.

***- Əmək müqavilələrinin rəsmiləşdirilməsinə nəzarətin təşkilinə, habelə işəgötürənlərlə işçilər arasında əmək müqavilələrinin imzalanmasına nəzarət necə həyata keçirilir?***

- Qazaxıstanda əmək müqavilələrinin imzalanmaması hallarına çox təsadüf olunur. Lakin son illər dövlət tərəfindən həyata keçirilən tədbirlər nəticəsində belə halların sayı azalmaqdadır. Ciddi problemlərdən biri də real əməkhaqqının düzgün göstərilməməsi, «ikili mühasibat»ın mövcudluğu, məvaciblərin əsas hissəsinin zərflərdə verilməsidir. Bundan başqa, işçinin xəbəri olmadan əmək müqaviləsinin dəyişdirilməsi hallarına da rast gəlinir. Belə halların qarşısının alınması üçün Qazaxıstanda ümumi gəlir bəyannaməsinə keçid nəzərdə tutulmuşdur. Bundan sonra qeyd edilən nöqsanların aradan qaldırılması mümkün olacaqdır.

**Samir MUSTAFAYEV**

# «Vergi dostları» şəbəkəsi genişlənir

*Əhalinin bütün təbəqələrini, xüsusilə kommunikasiya imkanları, informasiya texnologiyaları zəif olan qəsəbə və kənd sakinlərini vergilər barədə davamlı şəkildə məlumatlandırmaq, maarifləndirmək bəzən vergi orqanları üçün müəyyən çətinlik yaradır. Vergilər Nazirliyi ilə Təhsil Nazirliyinin əməkdaşlığı əsasında həyata keçirilən «Vergi dostları» layihəsi bu çətinliyin aradan qaldırılmasına yönəldilib.*

Layihə ərazi vergilər idarələrinin və vergi ödəyicilərinə xidmət terminallarının əhatəsindən kənarda olan kənd və qəsəbələrdə ictimaiyyətin daha aktiv nümayəndələrini - vergi işini yaxşı başa düşən müəllimləri bir araya gətirir, maarifləndirmə işlərinə cəlb edir. Hər bir «vergi dostu» yaşadığı ərazidə əhali arasında vergilərə dair məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini həyata keçirir. Hazırda Vergi dostları» şəbəkəsinin 1550-yə yaxın üzvü var və onların sırası aydan-aya genişlənməkdədir. Bundan əlavə, «Facebook» sosial şəbəkəsində «Vergi dostları şəbəkəsi» qrupu da yaradılıb. Qrupun yaradılmasında məqsəd layihənin iştirakçıları olan müəllimləri əlaqələndirmək və onlar tərəfindən bu istiqamətdə görülən işləri ictimaiyyətə çatdırmaqdır.

Müsahiblərimiz artıq bu sahədə təcrübə toplamış «vergi dostları»dır:

**2 saylı Ərazi Vergilər Departamentinin** tabeliyində olan Abşeron rayonu Ceyranbatan qəsəbəsinin 1 nömrəli tam orta məktəbinin riyaziyyat müəllimi *Rəsmiyyə İmanova:* «Qəsəbəmizin sakinləri və məktəblilər arasında vergilərə dair məlumatlandırma işləri aparırıq. POS-terminalların tətbiqi, nağdsız ödənişlərin üstünlükləri, vergilərin dövlətimiz üçün əhəmiyyəti barədə məlumatlar veririk.

Mənim işim daha çox vergi ödəyicilərinə bəyannamələrin göndərilməsində, vergi və cərimələrin ödənilməsində kömək etməkdir. Onu da deyim ki, sahibkarların vergilərlə bağlı məlumatlılıq səviyyəsi yüksəkdir. Onlar vergi ödəyicisi kimi kifayət qədər fəallıq göstərir, hər hansı çətinliklə üzləşdikləri zaman bizim köməyimizdən istifadə edirlər.

Mənim əsas çətinliyim işlədiyim məktəbdə vergilərin tədrisinə aid metodiki kabinetin olmamasıdır. Əvvəllər məktəbimizdə vergi fənninin tədrisi ilə bağlı dərnək fəaliyyət göstərirdi. Sonradan ləğv olundu. Arzu edərdim ki, bu dərnək yenidən bərpa edilsin».

**9 saylı Ərazi Vergilər İdarəsinin** tabeliyində olan Göyçay rayonunun Ləkçıplak kəndinin 2 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi və tərbiyə işləri üzrə direktor müavini *Şəhriyar Abdullayev:* «Məktəbimizdə keçirdiyimiz tədbirlərdə Vergilər Nazirliyi tərəfindən təqdim olunan xidmətlər, vergi növləri və dərəcələri, vergilərin mahiyyəti barədə məlumatlar verirəm. «Facebook» sosial şəbəkəsi vasitəsilə gördüyümüz işlər barədə məlumatları paylaşıram. Kənd əhalisinin əksəriyyəti vergilərlə bağlı az-çox bilgilərə malikdir. Amma əlavə tədbirlərin keçirilməsinə də ehtiyac var. Kəndimizdə yeni açılan mağazaların sahibləri ilə görüşüb ödəməli olduqları vergilər, vergilərin dərəcələri və ödənilmə tarixləri barədə maarifləndirmə xarakterli söhbətlər aparmışam».

**12 saylı Ərazi Vergilər Departamentinin** tabeliyində olan Göygöl rayonunun Üçtəpə kənd tam orta məktəbinin riyaziyyat-informatika müəllimi *Nurlan Quliyeva:* «Fəaliyyətim rayonun Üçtəpə kəndi və Firuzabad qəsəbəsi ərazilərini əhatə edir. Vergi ödəyicilərinə Vergilər Nazirliyinin internet ünvanlarında olan elektron xidmətlər haqqında məlumat verirəm. Saytlardan istifadə qaydalarını - məktub və ərizələrin, bəyannamələrin göndərilməsini, vergi borclarının öyrənilməsini və s. izah edirəm. Bundan əlavə, kənd əhalisi, müəllim və şagirdlər arasında məlumatlandırma, maarifləndirmə və təbliğat işi aparıram, insanlar arasında vergi mədəniyyətini formalaşdırmağa çalışıram. Riyaziyyat dərsində vergiyə aid məsələlər hazırlayır, birlikdə həll edirik.

Keçirdiyim tədbirlərə, əsasən, könüllü əməletmə səviyyəsi aşağı olan vergi ödəyicilərini cəlb etməyə çalışıram ki, onlarda lazımi vərdişlər yaransın. Bu işdə vergi əməkdaşlarından müxtəlif metodiki kömək alıram. Bu, işimi xeyli asanlaşdırır».

**14 saylı Ərazi Vergilər İdarəsinin** tabeliyində olan Qazax rayonunun Qazaxbəyli kənd tam orta məktəbinin tarix müəllimi *Elşən Qocayev:* «Treninqlərdə öyrəndiklərimi indi kənd sakinləri, vergi ödəyiciləri və məktəblilər ilə bölüşürəm. Kəndimizdə fəaliyyət göstərən vergi ödəyiciləri ilə tez-tez görüşüb onlarla maarifləndirici söhbətlər keçirirəm, bukletlər paylayıram. İşimiz yaşından, peşəsindən asılı olmayaraq, insanlara sadə bir həqiqəti başa salmaqdır: vergilərin ödənilməsi başqaları üçün yox, özümüz, dövlətimiz, xalqımız üçündür. Ödədiyimiz vergi son nəticədə xalqa, yəni özümüzə geri qayıdır. Söhbət etdiyim vergi ödəyicilərinə bunu anlatmağa çalışıram».

**AYTƏN**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

Rakurs

# Vergitutmanın formaları

Vergitutmanın formalarının qanunvericiliklə müəyyən olunması hər bir ölkənin vergi qanunvericiliyində nəzərdə tutulan vacib normalardandır. Vergilərin tutulmasının müxtəlif formaları vergitutma obyektlərinin formalaşması və onların uçotunun aparılması xüsusiyyətlərindən, habelə ödəyicinin hüquqi statusundan asılı olaraq müəyyən edilir. Vergitutmanın müxtəlif formaları tətbiq olunmaqla vergilərin ödənilməsinin və onlara nəzarətin həyata keçirilməsinin səmərəli mexanizminin qurulmasına imkan yaradılır.

Beynəlxalq təcrübədə vergitutmanın üç əsas forması daha geniş yayılmışdır. Bunlara verginin ödəmə mənbəyində tutulması, bəyannamə əsasında ödənilməsi və bildiriş əsasında tutulması aiddir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində də vergitutmanın üç forması müəyyən olunmuşdur:

- bilavasitə mənbədən (verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulması);
- bəyannamə üzrə (verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulması);
- bildiriş üzrə (vergitutma obyektinin dəyəri və sahəsi əsasında vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyyə bildirişi əsasında verginin ödəyici tərəfindən ödənilməsi).

Verginin bilavasitə mənbədən tutulması forması Vergi Məcəlləsi ilə müəyyən olunmuş hallarda verginin ödəyicinin birbaşa özü tərəfindən ödənilməsini deyil, ona gəliri ödəyən digər şəxs (vergi agenti) tərəfindən ödəmə mənbəyində tutulmasını nəzərdə tutur. Vergi bu halda gəliri ödəyən şəxsdən tutulub ödənilsə də, əslində, gəliri əldə edən vergi ödəyicisinin vergisi sayılır.

Qeyd etmək lazımdır ki, verginin ödəmə mənbəyində tutulması yalnız dövlət vergilərinə münasibətdə tətbiq olunur. Yerli (bələdiyyə) vergilərdə verginin ödəmə mənbəyində tutulması halı Vergi Məcəlləsində müəyyən edilməmişdir.

Ödəmə mənbəyində gəlirdən vergini tutub büdcəyə ödəyən şəxslər, Vergi Məcəlləsinə əsasən, vergi agenti adlandırılırlar. Verginin ödəmə mənbəyində tutulmasının halları Vergi Məcəlləsinin 125-ci (görülmüş işlərə və göstərilmiş xidmətlərtə görə Azərbaycanda daimi nümayəndəliyi olmayan qeyri-rezidentlərə aparılan ödəmələrdən), 122-ci (dividenddən), 123-cü (faiz gəlirlərindən), 124-cü (fiziki şəxslərə ödənilən icarə haqqından və royaltidən) və sair maddələrində, verginin ödəmə mənbəyində tutulması qaydası isə Məcəllənin 150-ci maddəsində göstərilmişdir. Vergi Məcəlləsində ödəmə mənbəyində tutulmalı olan verginin dövlət büdcəsinə ödənilməməsinə görə vergi agentlərinə qarşı məsuliyyət tədbirləri də nəzərdə tutulmuşdur.

Ödəmə mənbəyində vergi gəlir və ya mənfəət əldə edilənədək tutulur. Bu onu nəzərdə tutur ki, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə vergi ödəyicisinə ödənilən haqdan və ya onun xeyrinə edilən hər hansı ödənişdən verginin tutulması gəliri ödəyən şəxs tərəfindən həmin haqq və ya ödənişin onun sərəncamına verilməsindən qabaq həyata keçirilir, yəni ödənilməli olan haqq mənbədə tutulan verginin həcmi qədər azaldılır və sonra qalan məbləğ vergi ödəyicisinə ödənilir.

*Vergi Məcəlləsində ödəmə mənbəyində tutulmalı olan verginin dövlət büdcəsinə ödənilməməsinə görə vergi agentlərinə qarşı məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur*

Verginin bəyannamə üzrə tutulması forması Vergi Məcəlləsi ilə müəyyən olunmuş vergilərin ödənilməsi üçün onların ödəyiciləri tərəfindən vergi bəyannamələrinin vergi orqanlarına verilməsinin məcburi olduğu hallarda (ödəmə mənbəyində tutulan vergi barədə bəyannamənin verilməsi halları istisna olunmaqla) tətbiq olunur. Vergitutmanın bu üsulu Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada və müddətlərdə müvafiq vergi bəyannaməsinin tərtib edilib vergi orqanına təqdim edilməsini və həmin bəyannamə üzrə hesablanmış verginin ödənilməsini nəzərdə tutur. Bəyannamənin tərtib edilməsi və vergi orqanına təqdim olunması qaydası Vergi Məcəlləsinin 72-ci maddəsində nəzərdə tutulmuşdur. Vergi Məcəlləsində hər bir vergi növü üzrə bəyannamənin vergi orqanına təqdim olunması və verginin ödənilməsi müddətləri də göstərilmişdir.

Verginin bəyannamə üzrə tutulmasının başlıca xüsusiyyəti ondan ibarətdir ki, vergi gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulur. Bu zaman Vergi Məcəlləsi ilə müəyyən olunmuş hesabat dövrü bitdikdə və həmin dövr üçün vergi ödəyicisinin gəlir və ya mənfəəti artıq məlum olduqdan sonra həmin dövr ərzində yaranan vergitutma obyektindən verginin hesablanıb büdcəyə ödənilməsi həyata keçirilir.

Verginin bəyannamə üzrə tutulması forması həm dövlət vergilərinə, həm də yerli (bələdiyyə) büdcəyə ödənilən yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinə və bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisinə münasibətdə tətbiq edilir.

Verginin tutulmasının yuxarıda göstərilən formalarda həyata keçirilməsi mümkün olmadığı hallarda, vergi orqanı və ya bələdiyyə tərəfindən müvafiq vergitutma obyektindən verginin hesablanması haqqında bildiriş tərtib olunaraq vergi ödəyicisinə göndərilir. Dövlət vergi orqanları tərəfindən verginin bu formada hesablanması halları və qaydası Vergi Məcəlləsinin 83-cü maddəsində nəzərdə tutulmuşdur. Bildiriş üzrə verginin tutulması forması yerli vergilərin inzibatçılığında daha geniş yayılmışdır. Belə ki, Vergi Məcəlləsinə və yerli vergilər haqqında qanunvericiliyə əsasən, fiziki şəxslərin mülkiyyətində və istifadəsində olan torpaq sahələrinə görə torpaq vergisi və fiziki şəxslərin mülkiyyətində olan əmlaka görə əmlak vergisi bələdiyyələr tərəfindən hesablanır və onun ödənilməsi üçün ödəyicilərə müvafq tədiyyə bildirişi göndərilir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycanda əhalinin sayı 2013-cü ilin əvvəlinə nisbətən **120,6 min** nəfər və yaxud **1,3%** artaraq **9 milyon 477 min 100** nəfərə çatmışdır.
- 2014-cü ilin ötən dövrü ərzində respublika üzrə 277 sahibkara **9,3 milyon manat** güzəştli kredit verilib.
- Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna fevralın 1-dək **51.691.129 manat** vəsait yığılmışdır.
- Bu il Azərbaycan hökuməti Avropa istehsalı olan **1000-dən** artıq kənd təsərrüfatı texnikası alıb.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Hüquqi şəxs ləğv edilərkən...

**_Bu barədə məlumat mətbuatda hansı qaydada dərc etdirilməli, kreditorlarla hesablaşmalar zamanı hansı öhdəliklər icra olunmalıdır?_**

Mülki Məcəllənin (bundan sonra - MM) 61.1-ci maddəsinə əsasən, ləğvetmə komissiyası (təsviyəçi) təyin olunduğu gündən sonra 10 gün müddətində Azərbaycan Respublikasında hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə hüquqi şəxsin ləğv edilməsi və kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatı dərc etdirir. Məlumat 15-20 gün fasilə ilə daha iki dəfə eyni qaydada dərc etdirilir. Kreditorların tələblərinin irəli sürülməsi müddəti ləğvetmə haqqında ilk məlumatın dərc edildiyi gündən etibarən 60 gündən az ola bilməz.

MM-in 59.2-1-ci maddəsində qeyd edilmişdir ki, bu maddədə göstərilən əsaslar üzrə hüquqi şəxsin ləğv edilməsi təşəbbüsü ilə çıxış edən iştirakçı və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı hüquqi şəxsin cari fəaliyyətinə rəhbərlik edən icra orqanından hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanatın (aktiv və passivlərinin vəziyyəti barədə) qəbul edilməsini tələb edir. Hüquqi şəxsin icra orqanı ləğvetmə qərarından ən çoxu 20 gün əvvəl bu bəyanatı qəbul edir və ya qəbul edilməsinin mümkünsüz olduğunu bildirir. İcra orqanı bəyanatın qəbul edilməsinin mümkünsüzlüyünü bildirdikdə, iştirakçıların ümumi yığıncağı hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olub-olmamasını təsdiq etmək üçün müstəqil auditor cəlb edə bilər. Müstəqil auditor hüquqi şəxsin ödəmə qabiliyyətinin olmasını öz rəyi ilə təsdiq etdikdə, həmin rəy bu maddə ilə müəyyən olunmuş bəyanata bərabər tutulur.

MM-in 61.3-cü maddəsinə müvafiq olaraq ləğvetmə komissiyası (təsviyəçi) kreditorları aşkar etmək və debitor borcunu almaq üçün tədbirlər görür, habelə ləğvetmə ilə bağlı mətbuatda elanın dərc olunduğu gün hüquqi şəxsin ləğvi haqqında bütün məlum kreditorlara bildiriş göndərir, dövlət büdcəsinə məcburi ödənişlər və büdcədənkənar dövlət fonduna məcburi dövlət sosial sığorta haqları üzrə borcların olub-olmamasını müəyyən etmək üçün müvafiq icra hakimiyyəti orqanına müraciət edir.

MM-in 61.6-cı maddəsinə əsasən, ləğvetmə komissiyası (təsviyəçi) hüquqi şəxsə məxsus olan əmlakın kreditorların tələblərini ödəmək üçün kifayət etmədiyini müəyyən etdikdə, dərhal müflisolma prosesini başlamalıdır.

MM-in 61.7-ci maddəsində qeyd edilmişdir ki, ləğv edilən hüquqi şəxsin kreditorlarına pul vəsaitini ləğvetmə komissiyası (təsviyəçi) ödəmə barədə tələblərin daxil olduğu növbəlilik qaydasında aralıq ləğvetmə balansına uyğun olaraq onun təsdiq edildiyi gündən başlayaraq ödəyir.

MM-in 61.8-ci maddəsinə əsasən, bütün məlum olan kreditorlarla hesablaşmalar başa çatdıqdan sonra 5 gün müddətində ləğvetmə komissiyası (təsviyəçi) ləğvetmə balansını və qalıq əmlakın iştirakçılar arasında bölünməsi (qeyri-kommersiya təşkilatı olduğu halda isə MM-in 114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə uyğun olaraq istifadə edilməsi) planını əks etdirən hesabatı tərtib edir. Həmin balans və hesabat tərtib edildiyi gündən sonra 45 gündən gec olmayaraq hüquqi şəxsin iştirakçıları və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı tərəfindən təsdiq edilməlidir.

MM-in 61.9-cu maddəsinə müvafiq olaraq, kreditorlar ləğvetmə balansı təsdiq edilənə qədər öz tələblərini irəli sürə bilərlər. 61.13-cü maddəyə görə isə hüquqi şəxsin dövlət reyestrindən çıxarılmasından sonra yeni öhdəliklərin meydana çıxması ləğvetmə prosesinin yenidən açılmasına səbəb olmur.

# Vergi güzəştləri əhalinin rifahına xidmət edir

*Vergi qanunvericiliyində edilmiş son dəyişikliklərdə vergi güzəştləri iki əsas istiqaməti: sosial məqsəd kimi vergi ödəyicilərinin maddi vəziyyətinin yüksəldilməsini; stimullaşdırıcı xarakter olaraq müəyyən strateji sahələrin inkişafını sürətləndirməyi əhatə edir.*

Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasını nəzərdə tutan dəyişikliyə əsasən, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi 30%-dən 25%-ə endirilmiş, aylıq və illik gəlirlərin 14% dərəcə ilə vergiyə cəlb edilən məbləğləri müvafiq olaraq 2000 manatdan 2500 manatadək və 24000 manatdan 30000 manata qədər qaldırılmışdır.

Bununla yanaşı, gəlir vergisi üzrə güzəştlərin əhatə dairəsi də genişləndirilmişdir: əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğləri 2 dəfəyədək artırılmışdır.

I-II qrup müharibə əlillərinə muzdlu işlə əlaqədar aylıq gəlirinin vergi tutulan məbləğinin 400 manat məbləğində azaldılmasını nəzərdə tutan güzəşt hüququ bütün qruplardan olan müharibə əlillərinə şamil edilmişdir. Muzdlu işlə əlaqədar aylıq gəliri 200 manatadək, illik gəliri 2400 manatadək olan şəxslərə verilən güzəştin məbləği də artırılmışdır. Bu güzəştin müəyyən edilməsində istifadə olunan «minimum əməkhaqqı» məbləği (93,5 manat) «əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumu» məbləği (125 manat) ilə əvəz olunmuşdur.

Fiziki şəxslərin gəlir vergisində edilmiş dəyişikliklər vətəndaşların gəlirlərinin böyük bir hissəsinin onların sərəncamında qalmasına şərait yaratmaqla yanaşı, əmək haqlarının leqallaşdırılması istiqamətində aparılan iqtisadi təşviqetmənin tərkib hissəsi hesab olunur. Mütəxəssislərin hesablamalarına görə, tətbiq edilən vergi güzəştləri və imtiyazlar nəticəsində təkcə 2013-cü ildə 47 milyon manatdan artıq vəsait vergi ödəyicilərinin və vətəndaşların sərəncamında qalmışdır. Həmin vəsaitlər sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, vətəndaşların sosial və digər problemlərinin həlli üçün kifayət qədər əhəmiyyətli rol oynayır.

Vergi Məcəlləsinə bu il yanvarın 1-dən qüvvəyə minən əlavə və dəyişikliklərdə isə körpələr evləri, körpələr evi-uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri 10 il müddətinə hüquqi şəxslərin mənfəət vergisini və sadələşdirilmiş vergini ödəməkdən azad edilmişlər. Bu güzəşt gələcəkdə ölkəmizdə yeni uşaq bağçalarının, körpələr evlərinin tikilib istifadəyə verilməsinə, fəaliyyətinə stimul verəcək.

Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər 2014-cü il yanvarın 1-dən bir il müddətində gəlir vergisindən azad olunmuşdur. Bu güzəştin tətbiqi ilə əhalinin banklara etimadının yüksəlməsinə əsaslı stimul yaradır.

## Vergi Məcəlləsinə texnoparklarla bağlı edilmiş son əlavə və dəyişikliklər ümumilikdə ölkə iqtisadiyyatının inkişafına böyük təsir göstərəcək

Azərbaycan hökumətinin qarşısında duran əsas vəzifələrdən biri də iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq, iqtisadi artımı qeyri-neft sektorunun, onun aparıcı tərkib hissəsi olan sənaye sektorunun hesabına təmin etməkdir. Sənayenin innovasiyalar əsasında inkişaf etdirilməsi, mühüm strateji layihələr kimi texnoparkların yaradılması «Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da başlıca hədəflər sırasındadır. Dövlətin investisiya siyasətinin əsasını təşkil edən sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması və qeyri-neft sənayesinin inkişaf etdirilməsi proseslərinə artıq start verilmişdir. Sumqayıt şəhərində yaradılmış Kimya Sənaye Parkı, Yüksək Texnologiyalar Parkı, Balaxanı Sənaye Parkı bu istiqamətdə atılmış ilk addımlardır.

Azərbaycan hökuməti orta və uzunmüddətli perspektivdə texnoparkların inkişafını stimullaşdırmağı vacib hesab edir. Məhz buna görə də vergi qanunvericiliyində sənaye və texnologiyalar parklarında çalışan fiziki və hüquqi şəxslərə, eləcə də parkların idarəedici təşkilat və operatorlarına gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə 7 illik vergi güzəştləri tətbiq edilir. Ekspertlərin fikrincə, Vergi Məcəlləsinə texnoparklarla bağlı edilmiş son əlavə və dəyişikliklər ümumilikdə ölkə iqtisadiyyatının inkişafına böyük təsir göstərəcək. Bu addımın atılması texnoparklarda həyata keçirilən layihələrin miqyasının artmasına, bu sahəyə investorların cəlb olunmasına, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalına, yeni iş yerlərinin yaradılmasına əhəmiyyətli stimul verəcək. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, iştirak paylarının və səhmlərin satışı ƏDV-dən azad olunmuşdur.

Ödənişli təhsilin ƏDV-dən azad olunması isə ölkədə təhsil islahatları sahəsində real nəticələrin əldə olunmasına şərait yaradacaq.

**Rəşad SADIQOV**

# Aksizlər üzrə vergi daxilolmaları

*Azərbaycan Respublikasının Nazirlər Kabineti ölkəyə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında 2001-ci il 19 yanvar tarixli qərarına dəyişikliklər edib. Qeyd edək ki, indiyə qədər Azərbaycana gətirilən tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədli və tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 98-dən az oktan ədədli mühərrik benzininin 1 tonu üçün 250 ABŞ dolları məbləğində aksiz dərəcəsi tətbiq olunurdu.*

Dəyişikliyə əsasən, 2014-cü il iyunun 1-dək mühərrik benzininin 1 tonuna aksiz dərəcəsi 1 dollar müəyyən edilib.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycanda aksizli mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi qaydaları Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş qaydalara əsasən tənzimlənir.

Hazırda dövlət büdcəsinin vergi gəlirlərinin tərkibində aksizlərin xüsusi çəkisi əsaslı dərəcədə böyükdür. 2014-cü ilin büdcə layihəsində aksiz vergisindən daxilolmalar büdcə gəlirlərinin (Dövlət Neft Fondundan transfertlər istisna olunmaqla) 9,7%-ni təşkil etməklə 874,5 mln. manat proqnozlaşdırılmışdı: bunun 784,5 mln. manatı Vergilər Nazirliyinin, 90 mln. manatı isə Dövlət Gömrük Komitəsinin vasitəsilə təmin olunmalı idi. Aksiz vergisinin 2014-cü il üzrə nəzərdə tutulan həcmi 2012-ci ilin faktı ilə müqayisədə 343 mln. manat (64,5%), 2013-cü ilin təsdiq olunmuş proqnoz tapşırıqları ilə müqayisədə isə 280,5 milyon manat (47,2%) çox olmuşdur. Vergilər Nazirliyi üzrə proqnozlaşdırılan aksiz vergisi 2012-ci ilin faktı üzrə 329,9 mln. manat (72,6%), 2013-cü ilin proqnozu ilə müqayisədə isə 273,5 mln. manat (53,5%) çoxdur.

Beləliklə, faktiki olaraq aksizlər üzrə dövlət büdcəsinə Vergilər Nazirliyinin xətti ilə 2010-cu ildə 452 milyon 027,4 min manat, 2011-ci ildə 417 milyon 394,4 min manat, 2012-ci ildə 454 milyon 647,4 min manat, 2013-cü ildə isə 511 milyon 976,6 min manat vəsait daxil olmuşdur.

**Rəşad SADIQOV**

*2013-cü il ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 6 milyard 663 milyon 633,4 min manat vəsait daxil olmuşdur. Daxilolmaların ümumi məbləğinin 35,6%-i mənfəət vergisinin, 25,9%-i əlavə dəyər vergisinin, 12,9%-i fiziki şəxslərin gəlir vergisinin, 7,7%-i aksizlərin, 17,9%-i isə digər vergilərin payına düşür*

**2013-cü ildə vergi növləri üzrə daxiolmalar**




# Nağdsız ödənişlərlə bağlı yeni layihə

## «Pensiya+» nağdsız alış-veriş və POS-terminaldan istifadə vərdişlərinin yaranmasına xidmət edəcək

Azərbaycanda nağdsız ödənişlər sisteminin inkişaf etdirilməsi Dövlət Sosial Müdafiə Fondunun (DSMF) da hədəfində olan əsas məsələlərdəndir. Fondun güclü kart infrastrukturu bazası nağdsız ödənişlərin genişləndirilməsi üçün əlverişli imkanlar yaradır. DSMF ölkədə 1 milyon 300 min nəfərə yaxın pensiyaçının bu prosesə cəlb olunması məqsədilə «Pensiya+» layihəsinə start verməyi planlaşdırıb. Hazırda ölkədə, demək olar ki, bütün pensiyaçıların plastik kartlarla təmin olunması böyük bir istehlakçı kütləsinin nağdsız ödənişlərə cəlb olunması üçün əla fürsət yaradır.



DSMF sədri Elman Mehdiyev bildirib ki, hazırda pensiya ödənişi aparılan kənd yerlərində yaşayan pensiyaçıların 99,7%-i, şəhərlərdə yaşayan pensiyaçıların 100%-i, ümumilikdə isə bütün pensiyaçıların 99,9%-i pensiyasını plastik kartlar vasitəsilə alır. Ölkədə mövcud olan 5,5 milyon plastik kart sahibinin 1 milyon 270 mindən çoxu pensiyaşılardır. Kart əməliyyatlarını tənzimləmək üçün ölkə üzrə pensiyaçıların istifadəsinə 712 bankomat verilib (kənd və qəsəbələrdə 170 bankomat quraşdırılıb).

Bütün bu üstünlüklərə baxmayaraq, pensiyaçılar kartlardakı pullarını çıxarıb nağd qaydada istifadə etməyə üstünlük verirlər: kommunal ödənişləri, ticarət əməliyyatlarını nağd pulla həyata keçirirlər. Kartdakı vəsaitlərin POS-terminallardan istifadə etməklə alış-verişə yönəldilməsi təsəvvürü xüsusilə yaşlı nəsil arasında hələ çox zəifdir. Onlar üçün plastik kartlar, sadəcə, vəsaitin bankomat vasitəsilə nağdlaşdırılması alətidir. Pensiyaçıların kartlardan istifadə imkanları ilə bağlı məlumatlarının az olması onların nağdsız ödənişlərdən isdifadə etməsinə əngəl törədir. İnkişaf etmiş ölkələrdə isə nağdsız dövriyyədə pensiyaçıların xüsusi çəkisi mühüm yer tutur.

Azərbaycanda da pensiyaçıların nağdsız ödənişlərə təşviq edilməsi aktual vəzifələrdəndir. Mövcud texniki imkanlar plastik kartlardan təkcə pul vəsaitlərinin əldə olunması üçün deyil, həm də nağdsız ödənişlər bazarının bir çox sahələrində istifadə olunması üçün əlverişli şərait yaradır. DSMF-nin yaxın zamanlarda tətbiqinə başlamağı planlaşdırdığı «Pensiya+» layihəsinin əsas məqsədi də pensiyaçıların plastik kartlardan nağdsız alət kimi istifədə etməsini stimullaşdırmaqdır. Layihəyə əsasən, əmək pensiyaçılarını nağdsız ödənişlərdən istifadəyə cəlb etmək üçün onların kartdakı balanslarına aylıq pensiya məbləğindən əlavə kredit şəklində ən azı 100 manat pul «yüklənəcək». Məbləğ pensiyaçının müraciəti əsasında artırıla bilər. Kreditdən isə yalnız nağdsız alış-veriş zamanı istifadə etmək mümkün olacaq. Kart sahibi öz pensiya vəsaitini tam xərclədikdən sonra kreditdən yararlanacaq. Sonrakı aylarda isə kredit müəyyən hissələrlə pensiya məbləğindən çıxılacaq. Bu xidmətə görə pensiyaçılardan hər hansı xidmət haqqı tutulmayacaq. Pensiyaçı bir neçə dəfə bu krediti əldə etmək imkanına malik olacaq. «Pensiya+» xidmətindən ilkin mərhələdə Beynəlxalq Bankın pensiya kartlarına sahib olan vətəndaşlar istifadə edə biləcəklər, sonrakı mərhələdə isə digər kart sahibləri də bu imkanlardan faydalanacaqlar. Layihə pensiyaçıda nağdsız alış-veriş vərdişinin yaranmasına və POS-terminaldan istifadəyə maraq oyatmasına xidmət edəcək.

İqtisadçı mütəxəssis Oqtay Məmmədov yeni layihənin mühüm əhəmiyyət daşıdığını qeyd etmişdir. Onun bildirdiyinə görə, pensiya kartına malik vətəndaşların ən azı 40%-nin ticarət əməliyyatlarını kart vasitəsilə həyata keçirməsi təxminən 500 min plastik kartın nağdsız dövriyyəyə cəlb olunması deməkdir. Burada əsas məsələ pensiyaçıların POS-terminallardan istifadə ilə bağlı maarifləndirilməsidir. Onlara plastik kartların çoxfunksiyalı olduğunu geniş şəkildə izah etməyə ehtiyac var. Pensiyaçılara kartlardan kommunal ödənişlər, ticarət, xidmət və digər sahələrdə istifadəni təşviq etməklə, bu sahədə stimullaşdırıcı addımlar atmaqla qarşıya qoyulan hədəflərə çatmaq mümkündür. Bu cür layihələr ölkədə nağdsız ödəniş sistemləri bazarının inkişafı üçün geniş perspektivlər yaradacaq.

**Elbrus CƏFƏRLİ**

# 2014-2017-ci illərdə Azərbaycanın inkişaf prioritetləri

*Nazirlər Kabineti Azərbaycanın 2015-ci il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin hazırlanması ilə bağlı sərəncam verib.*

Sənədə əsasən, Maliyyə, İqtisadiyyat və Sənaye nazirliklərinə qarşıdakı illərdə ölkənin sosial-iqtisadi, büdcə-fiskal, maliyyə, vergi, gömrük və digər sahələrə dair inkişaf konsepsiyasını, proqnoz göstəricilərini, maliyyə balansını və digər sənədləri hazırlayıb hökumətə təqdim etmək tapşırılıb. Vergilər Nazirliyinə, Dövlət Gömrük Komitəsinə və dövlət büdcəsinin gəlirlərini təmin edən digər orqanlara büdcənin tərtibi və icrası prosesi üçün gəlirlərlə bağlı müvafiq dəyişikliklər edilməsi məqsədilə təkliflər hazırlamaq barədə tapşırıq verilib.

İqtisadiyyat və Sənaye Nazirliyinin hazırladığı 2014-2017-ci illərə dair ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasında Azərbaycanın iqtisadi artım tempi, orta illik inkişaf göstəriciləri, orta aylıq əməkhaqqı, əhalinin gəlir və xərcləri, demoqrafik və məşğulluq göstəriciləri, işsizlik, yoxsulluq səviyyəsi, büdcə gəlirlərinin gözlənilən artım dinamikası, qeyri-neft sektorunun inkişaf gözləntiləri və digər makroiqtisadi indekslərə dair proqnozlar öz əksini tapıb. Sənədə əsasən, 2014-cü ildə ölkədə ÜDM-in 5,2%-i səviyyəsində real artımı gözlənilir. 2015-ci ildə ÜDM 59,4 milyard manat (artım 5,8 %), 2016-cı ildə 63,1 milyard manat (artım 4,8%), 2017-ci ildə isə 67,3 milyard manat (artım 6%) səviyyəsində proqnozlaşdırılır. 2014-2017-ci illərdə ÜDM-də neft sektorunun payı müvafiq olaraq 38,5%-dən 27,6%-ə düşəcək. ÜDM-də iqtisadiyyatın qeyri-neft sektorunun xüsusi çəkisi 2014-cü ildəki 61,5%-dən 2017-ci ildə 72,4%-ə çatacaq. Maliyyə Nazirliyindən verilən xəbərə görə, 2014-2017-ci illər üçün Azərbaycanın büdcə siyasəti iqtisadiyyatın prioritet sahələrinin modernləşməsinə və effektivliyinin, uzunmüddətli dayanıqlılığının təmin edilməsi üçün şərait yaradılmasına, investisiya mühitinin daha da yaxşılaşdırılmasına yönəldiləcəkdir.




Ortamüddətli perspektiv üçün əsas hədəf ölkənin makroiqtisadi göstəricilərinin sabit artımına, qeyri-neft sektorunun dayanıqlı inkişafına, maliyyə intizamının gücləndirilməsinə və şəffaflığın daha da artırılmasına nail olmaq, iqtisadiyyatın tənzimlənməsində dövlət büdcəsinin rolunu artırmaq, monetar və büdcə siyasətinin koordinasiyasını gücləndirməkdir. Qarşıdakı illərdə regionların inkişafının sürətləndirilməsinə, bölgələr arasındakı sosial-iqtisadi fərqlərin mərhələlərlə aradan qaldırılmasına və balanslaşdırılmış inkişafa nail olunmasına, respublikanın rayon və şəhərlərinin yerli gəlirləri hesabına mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsaitlərin azaldılmasın diqqət artırılacaqdır.

2014-2017-ci illər üçün büdcə siyasətinin əsas prioritetlərinə ÜDM-də qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin xüsusi çəkisini yüksəltmək, büdcə gəlirlərinin yığım əmsalını artırmaq, dövlət büdcəsi xərclərinin optimallaşdırılması istiqamətində işləri davam etdirmək, büdcədən maliyyələşən təşkilatlar üzrə adambaşına maliyyələşdirmə prinsipinə keçmək, yerli dövlət proqramları və tədbirlərinin ortamüddətli büdcə xərcləri ilə uzlaşdırılması üçün tədbirlər görmək, xərclərin investisiya və social yönümlülüyünə üstünlük verməklə sosial siyasəti gücləndirmək, büdcə xərclərinin son nəticəyə əsaslanan məqsədli proqramlar əsasında tərtibini davam etdirmək kimi strasteji məqsədlər daxildir. Bundan başqa, qarşıda iqtisadiyyatın, o cümlədən sahibkarlığın, dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etmək, ölkənin müdafiə qüdrətinin, təhlükəsizliyinin və hərbi potensialının artırılması istiqamətində büdcə siyasətini davam etdirmək, dövlət büdcəsindən müəssisə və təşkilatlara verilən maliyyə yardımlarının və transfertlərin istifadə mexanizmini təkmilləşdirmək və effektivliyi artırmaq, iqtisadi irəliləyişlərə şərait yaradan qanunvericilik bazasını gücləndirmək, qeyri-neft gəlirlərinin artımı hesabına dövlət büdcəsi kəsirinin azaldılmasına və kəsirin idarə olunan səviyyədə saxlanılmasına nail olmaq kimi hədəflər də durur.

Sosial-iqtisadi inkişaf konsepsiyasında vergi siyasətinin də əsas istiqamətləri müəyyən olunub. Sənədə əsasən, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsinin əsas prinsiplərini ölkədə bütün vergi ödəyiciləri üçün bərabər iqtisadi şəraitin yaradılması, sahibkarlığın inkişafı və azad rəqabətin formalaşması təşkil edəcək. Növbəti illərdə də vergi siyasətinin əsas istiqamətləri sahibkarlığın müasir sahələrinin, o cümlədən innovativ sahibkarlığın inkişaf etdirilməsinə, investisiya qoyuluşlarının genişləndirilməsinə, vergi inzibatçılığının müasir İKT zəminində daha da təkmilləşdirilməsinə, vergi dərəcələrinin optimallaşdırılmasına, beynəlxalq vergi qanunvericiliyinə inteqrasiyanın dərinləşdirilməsinə yönəldiləcəkdir.

2014-2017-cı illər üçün Azərbaycanın vergi siyasətinin əsas hədəfləri gəlir vergisinin dərəcələrinin, güzəşt və azadolmaların təkmilləşdirilməsi ilə əməkhaqqının ödənilməsi sisteminin leqallaşdırılmasına nail olmaq, transfert qiymətlərinin tətbiqi üzrə qanunvericilik bazasını yaratmaq, vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərini genişləndirmək, nağdsız ödənişləri stimullaşdırmaq və elektron xidmətləri genişləndirməkdir. Bunlarla yanaşı, vergi inzibatçılığının, vergi nəzarətinin (kameral, səyyar vergi yoxlamaları və operativ vergi nəzarəti) təkmilləşdirilməsi və elektron auditin, elektron ticarətə nəzarətin həyata keçirilməsi, ümumi bəyannamə sisteminə keçidlə bağlı tədbirlərin görülməsi, vergi bəyannamələrinin əvvəlcədən doldurulması sisteminə keçidin təmin olunması, özəl vergi məsləhətçiləri və vergi ombudsmanı institutlarının yaradılması, vergi dərəcələrinin optimallaşdırılması, vergidən azadolmaların və vergi güzəştlərinin minimuma endirilməsi yolu ilə vergitutma bazasının genişləndirilməsi, vergi yükünün tədricən istehsaldan istehlaka keçirilməsi üçün təkliflərin hazırlanması da başlıca məqsədlərdəndir. Vergi siyasətinin digər istiqamətləri aksiz vergisi üzrə daxildə və idxalda tətbiq olunan dərəcələrin eyniləşdirilməsini, harmonizasiya məqsədilə aksizin tətbiq sahəsinin genişləndirilməsini, ƏDV-də güzəşt və imtiyazların aradan qaldırılması və onun dərəcələrinin diferensiasiyasına keçilməsini, əmlak və torpaq vergilərinin bazasında daşınmaz əmlak vergisinin tətbiqini və vergilərin tədricən bazar qiymətinə əsasən hesablanıb tutulmasına keçidin təmin edilməsini nəzərdə tutur.

**Elbrus CƏFƏRLİ**

# Vergi ödəyicilərinə göstərilən xidmətlər təkmilləşdirilir

**Əvvəli ötən sayımızda**

*Vergi ödəyicilərinə göstərilən xidmətlərin ildən-ilə təkmilləşdirilməsi, bu sahədə informasiya-kommunikasiya texnologiyalarının ən son yeniliklərinin tətbiqi 2013-cü ildə də Vergilər Nazirliyinin fəaliyyətində prioritet istiqamətlər sırasında olmuşdur. Bu tədbirlər vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin və çeşidinin artırılmasına xidmət etməklə yanaşı, nazirliyin şəffaflıq və elektron xidmətlər sahəsində qabaqcıl dövlət qurumuna çevrilməsini təmin etmişdir.*

***İnternet resursları zənginləşdirilir***

Vergi orqanlarına göstərilən xidmətlərin innovativ xarakteri, ilk növbədə, nazirliyin rəsmi internet səhifəsində (www.taxes.gov.az) təzahürünü tapır. Səhifəyə daxil olanlar Vergilər Nazirliyi və onun struktur vahidləri barədə zəruri məlumatları, yenilikləri, statistik göstəriciləri öyrənir, dolğun qanunvericilik bazasından yararlanır və elektron bəyannamələrini təqdim edə bilirlər. Saytda zəruri məlumatların yerləşdirilməsi və yenilənməsi mütəmadi xarakter daşıyır.

Bunun nəticəsidir ki, ötən il nazirliyin rəsmi internet səhifəsinə daxil olmuş istifadəçilərin sayı 2012-ci illə müqayisədə 13,7% artaraq 3 milyon 456 min 151 nəfər təşkil etmişdir. Bu dövrdə internet səhifəsinin «Sual-cavab» bölməsinə 2236 müraciət daxil olmuş, onların 96,6%-i qısa müddət (1-5 gün) ərzində cavablandırılmışdır.

Vergilər Nazirliyinin «Facebook» və «Twitter» sosial şəbəkələrindəki rəsmi səhifələrində, «Youtube» video hostinq serverində və «video.az» saytında vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması müntəzəm şəkildə həyata keçirilmişdir. Nazirliyin «Facebook» sosial şəbəkəsindəki səhifəsində «FACE-Vizit» layihəsi davam etdirilmiş, eləcə də vergi ödəyicilərinin vergi qanunvericiliyi və inzibatçılığı barədə məlumatlandırılması məqsədilə «Onlayn müfəttiş» adlı layihənin reallaşdırılmasına başlanılmışdır.

2013-cü ildə həvəskar və peşəkar ssenaristlərin stimullaşdırılması və vergi ödəmələrinin bədii təbliğatı məqsədilə «Ən yaxşı film sinopsisi» müsabiqəsi, əmək müqavilələrinin bağlanmasının zəruriliyinin təbliğatı məqsədilə «Əmək müqaviləsi» adlı foto müsabiqə keçirilmiş, qaliblər mükafatlandırılmışdır.

***«195» Çağrı Mərkəzi - etimadın ünvanı***

Ötən il «195» Çağrı Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Ümumilikdə, il ərzində Çağrı Mərkəzi tərəfindən vergi ödəyicilərinin və vətəndaşların 2 milyon 386 min 66 müraciəti cavablandırılmışdır. Canlı rejimdə fəaliyyət zamanı 1 milyon 740 min 90 müraciət müfəttiş-operatorlar tərəfindən cavablandırılmışdır ki, bu da 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə 25,3% çoxdur.

Bununla yanaşı, Çağrı Mərkəzi tərəfindən «e-imza»ya dair 18992 müraciət, o cümlədən «Asan» imzaya dair 18568 müraciət cavablandırılmışdır. 2013-cü il iyulun 23-dən Çağrı Mərkəzində «Asan imza» ilə bağlı müraciətlərin fasiləsiz (7/24) cavablandırılmasına başlanılmışdır.

Ötən il 584 min 387 vergi ödəyicisi mesaj xidməti vasitəsilə məlumatlandırılmışdır. Sahibkarların, vətəndaşların vaxt itkisinə yol vermədən bir mənbədən biznesin qeydiyyatı, lisenziyalaşdırma, vergilər, rüsumlar və sahibkarları maraqlandıran digər məsələlər barədə məlumat almalarını təmin etmək məqsədilə Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinin və ayrı-ayrı dövlət orqanlarındakı anoloji xidmətlərin vahid telefon-məlumat xidmətinə inteqrasiyası və mərkəzləşdirilmiş Çağrı Mərkəzinin təşkil edilməsi istiqamətində zəruri tədbirlər davam etdirilmişdir. Nazirlər Kabinetinin 28 oktyabr 2013-cü il tarixli qərarına əsasən, yaxın perspektivdə Maliyyə, Vergilər, İqtisadiyyat və Sənaye, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Dövlət Gömrük Komitəsinin və Dövlət Sosial Müdafiə Fondunun fəaliyyət sahələrini əhatə edəcək «Sahibkarlıq fəaliyyəti sahəsində universal telefon-məlumat xidməti (Çağrı Mərkəzi)»nin yaradılması nəzərdə tutulur.

***«Asan imza» ilə bağlı məlumatlandırma davam etdirilir***

İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi, eləcə də hüquqi və fiziki şəxslərə sertifikat xidmətlərinin göstərilməsi ilə bağlı 2013-cü ilin may ayından Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) fəaliyyətə başlamışdır. ASXM tərəfindən göstərilən xidmətlər, habelə «Asan (mobil) imza» sertifikatı barədə məlumatlandırma tədbirləri həyata keçirilmiş, eləcə də sertifikatın alınması üçün zəruri sənədlər nazirliyin rəsmi internet səhifəsində yerləşdirilmişdir. İlin sonunadək vətəndaşlar tərəfindən «Asan imza» sertifikat xidmətləri üzrə 11805 müraciət daxil olmuş, ümumilikdə 22423 sertifikat verilmişdir.

***Xidmət mərkəzləri tam şəkildə AVİS-ə inteqrasiya olunub***

2013-cü il ərzində göstərilən xidmətlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə Vergi ödəyicilərinə xidmət mərkəzlərinin Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (AVİS) və «Axtarış&hesabat» informasiya sisteminə inteqrasiyası başa çatdırılmışdır. Artıq 40 xidmət mərkəzinin hamısı AVİS-ə qoşulmuş və sürətli internet xətti ilə təchiz olunmuşdur. Vergi ödəyicilərinə xidmət mərkəzlərində köhnə kompüter və printerlərin, surətçıxarma avadanlıqlarının yeniləri ilə əvəzlənməsi, işıq generatorlarının quraşdırılması davam edir.

İl boyunca vergi ödəyicilərinə xidmət mərkəzlərində 152 min 638 vergi ödəyicisi qəbul edilmiş, onlara 345 min 466 sayda müxtəlif növ vergi xidmətləri göstərilmişdir. Bu, vergi orqanlarının vergi ödəyicilərinə xidmət strukturlarında qəbul edilmiş şəxslərin 54,8%-ni, onlara göstərilmiş vergi xidmətlərinin isə 57,7%-ni təşkil edir.

Vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi, xidmətlərin çeşidinin artırılması məqsədi ilə vergilər nazirinin 20 sentyabr 2013-cü il tarixli əmri ilə «Vergi ödəyicilərinə xidmət mərkəzində vergi ödəyicilərinin qəbulu və xidmətin təşkili Qaydaları» təsdiq edilmişdir. Bundan əlavə, xidmət mərkəzlərinin fəaliyyətinin qiymətləndirilməsi və təhlili meyarları müəyyən olunmuş, «Vergi ödəyicilərinə xidmətlərin vahid standartları» ilə vergi ödəyicilərinə göstərilən 124 adda xidmətdən 55-nin bu mərkəzlər tərəfindən həyata keçirilməsi müəyyən edilmişdir.

Vergilərin könüllü ödənilməsi sisteminin və sahibkarlığın inkişafı məqsədilə 2013-cü ilin noyabr ayında Bakı şəhərində Mirəli Qaşqay küçəsi, 56 ünvanında yeni xidmət mərkəzi yaradılmış, müasir avadanlıqlar və sürətli kommunikasiya sistemi ilə təchiz edilmişdir. Mərkəzdə göstərilən xidmətlərin səviyyəsinin dəyərləndirilməsi üçün vətəndaşlara sorğuda iştirak etmək, rəy və təkliflərini bildirmək, eləcə də mərkəzin fəaliyyətindən hansısa narazılıq olduğu təqdirdə, mərkəzdən kənara çıxmadan Vergilər Nazirliyinə birbaşa müraciət etmək imkanı yaradılmışdır.

**S.MUSTAFAYEV**

# «Elektron hökumət» portalı populyarlaşır

Bu gün ölkəmizdə vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün «bir pəncərə» prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi «Elektron hökumət» portalı fəaliyyət göstərir. Portal müasir informasiya texnologiyalarından istifadə etməklə ölkə ərazisində yaşayan bütün vətəndaşlara - hüquqi və fiziki şəxslərə, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə dövlət qurumları tərəfindən informasiya və e-xidmətlərin göstərilməsinə şərait yaradır. Əsas məqsəd xidmətlərin göstərilməsi üçün dövlət qulluqçuları və vətəndaşlar arasında məsafəni maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır.




Hazırda portal vasitəsilə öz xidmətlərini elektron formada təqdim edən 39 dövlət qurumu məlumatların keyfiyyətinə, tamlığına və düzgünlüyünə cavabdehdir. Xidmətlər Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq olunmuş siyahıya uyğun təşkil edilib.

Portala giriş imkanları genişdir: buraya Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) tərəfindən verilən e-imza kartı, «Asan imza» ilə, «Elektron hökumət» sistemi tərəfindən vətəndaşa verilmiş kodla, eləcə də mobil autentifikasiya sertifikatı və smartfonla daxil olmaq mümkündür. Ötən ilin statistikasına görə, «Elektron hökumət» portalına daxil olan internet istifadəçilərinin sayı 262 min 566 nəfər olub. Portala daxilolmaların ümumi sayı 456 min 712, elektron xidmətlərə edilmiş müraciətlərin sayı isə 736 min 447 təşkil edib. Ötən il «Elektron hökumət» portalı vasitəsilə elektron xidmətlərin göstərilməsi genişlənmiş, yeni xidmətlər əlavə olunmuşdur. Nazirlər Kabinetinin təsdiq etdiyi 428 elektron xidmətdən 282-si məhz bu portalda yerləşdirilmişdir.

«Elektron hökumət» portalına qoşulan ilk dövlət qurumlarından olan Vergilər Nazirliyi elektron xidmətlərin tətbiqi, vətəndaşlara göstərilən xidmətlərin sadələşdirilməsi istiqamətində öndə gedənlər sırasındadır. Nazirlər Kabinetinin «Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları»na və «Elektron xidmət növlərinin Siyahısı»nın təsdiq edilməsi haqqında» müvafiq qərarlarına əsasən, Vergilər Nazirliyinə 57 növ elektron xidmətin göstərilməsi həvalə edilib. İndiyədək nazirlik tərəfindən 51 növ elektron xidmət www.taxes.gov.az saytı vasitəsilə vətəndaşların istifadəsinə verilib. Həmin xidmətlərdən 44-ü artıq «Elektron hökumət» portalına qoşulub. Yaxın vaxtlarda digər xidmətlərin də portala inteqrasiyası gözlənilir.

Portala inteqrasiya olunan 44 e-xidmətdən 5-i «Qeydiyyatsız xidmətlər» adlı bölmədə yerləşdirilib. Bunlar: «Hüquqi adın yoxlanılması», «Oxşar hüquqi adların axtarışı», «Vergi ödəyicisinin ətraflı axtarışı», «VÖEN-ə görə ödəyicinin axtarılması», «VÖEN-ə və ya ada görə ödəyicinin axtarılması» xidmətləridir. Sonuncu xidmət portalda ən çox müraciət olunanlar siyahısındadır.

**AYTƏN**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Audit yoxlamasından məcburi keçməli olan və məcburi auditin obyekti olmayan təsərrüfat subyektləri

**Əvvəli ötən sayımızda**

«İnvestisiya fondları haqqında» Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində göstərilir ki, «İnvestisiya fondunun idarəçisi ildə azı bir dəfə kənar auditor tərəfindən yoxlanılmalıdır. İnvestisiya fondunun auditi yalnız nəzarət orqanı və auditor xidmətlərini tənzimləyən aidiyyəti orqan tərəfindən birgə müəyyən edilmiş tələblərə cavab verən kənar auditorlar tərəfindən aparıla bilər».

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1078-12.2-ci («İnvestisiya qiymətli kağızlarının emissiya prospektində aşağıdakı məlumatlar olmalıdır:») maddəsi üzrə 1078-12.2.8-ci bəndində göstərilir ki, «müstəqil auditorun hesabatı ilə birlikdə mitentin sonuncu balansı və toplu maliyyə hesabatı» olmalıdır.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 262-ci «Kollektiv tələblərin irəli sürülməsi» maddəsinin 4-cü bəndində göstərilir ki, «İşəgötürənin iqtisadi imkanlarına uyğun olmayan tələblərə yol verilmir. Tələblər iqtisadi imkanlarına uyğun olmadıqda işəgötürən bunu auditor rəyinə əsasən sübut etməlidir».

Bir qayda olaraq, lisenziyaların alınması üçün müvafiq icra hakimiyyəti orqanına təqdim olunan sənədlərin tərkibində auditor yoxlamasından keçmiş son maliyyə ilinin maliyyə hesabatları tələb olunur. Bunu lisenziya tələb olunan fəaliyyətlər üçün təsdiqlənən ayrı-ayrı normativ hüquqi aktların tələblərində görmək olar.

«Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri»nin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 oktyabr 2007-ci il tarixli 155 №-li qərarı ilə təsdiq edilmiş «Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri» barədə məlumatlarda dolayısı ilə məcburi auditin obyekti olan təsərrüfat subyektlərinin adları açıqlanmışdır. Bunlar banklar, büdcədənkənar fondlar, ictimai əhəmiyyətli qurumlar, birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar tətbiq edən hüquqi şəxslər, təbii inhisar fəaliyyəti subyektləri, bank olmayan kredit təşkilatları, sığorta (təkrar sığorta) təşkilatları, maliyyə-sənaye qrupları, fondlar, səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətlər, bələdiyyələr və bələdiyyə müəssisələridir.

Elə təsərrüfat subyektləri vardır ki, onlar maliyyə hesabatlarının qanunla məcburi auditdən keçməsi tələb olunmayan təsərrüfat subyektləri hesab edilə bilərlər. Əslində belə təsərrüfat subyektləri barədə qanunvericilikdə hər hansı təsdiqlənmiş siyahı və ya konkret müddəalar mövcud olmasa da ayrı-ayrı qanunvericilik aktlarının müddəalarının məzmunlarından belə qənaətə gəlmək olar ki, aşağıda göstərilən təsərrüfat subyektləri məcburi auditə cəlb olunmur:

- Qanunvericilikdə məcburi auditlə bağlı qeyri-hökumət təşkilatları nəzərdə tutulmayıb. Hətta «Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri»nin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 oktyabr 2007-ci il tarixli 155 №-li qərarı ilə təsdiq edilmiş «Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri» barədə məlumatlarda dolayısı ilə adları açıqlanan məcburi auditin obyekti olan təsərrüfat subyektləri içərisindən 14 iyun 2011-ci il tarixli 95 nömrəli Azərbaycan Resrublikası Nazirlər Kabinetinin Qərarına əsasən edilmiş dəyişikliklərə görə QHT-lər çıxarılmışdır. «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikasının Qanununa görə, QHT anlayışına ictimai birliklər və fondlar daxildir. Qanuna görə siyasi rartiyalar, həmkarlar ittifaqları, dini birliklər, yerli özünüidarə orqanları QHT anlamına gəlmir. Lakin fondlar adları açıqlanan təsərrüfat subyektləri içərisində ayrıca göstərildiyinə görə, belə aydın olur ki, yalnız ictimai birliklər məcburi auditdən azaddırlar.
- Müəyyən müddətə fəaliyyətini müvəqqəti dayandırmış kiçik sahibkarlıq subyektləri kimi çıxış edən, lakin müxtəlif səbəblərə görə fəaliyyətini müvəqqəti (1 il, 3 il, 5 il və ya çox) dayandırmaq məqsədilə vergi orqanına fəaliyyətinin dayandırılması ilə əlaqədar müvafiq arayışlar təqdim edən hüquqi şəxslər məcburi auditin obyekti olmamalıdır. Çünki onlar fəaliyyətini dayandırdığı müddət ərzində təsərrüfat əməliyyatları da baş vermədiyinə görə, maliyyə hesabatlarında hər hansı dəyişikliklər olmayacaqdır. Fəaliyyətini dayandırdığı maliyyə ilinin maliyyə hesabatları məcburi auditdən keçdikdən sonra növbəti illərdə auditdən keçməsinə zərurət yaranmır. Çünki sonuncu maliyyə hesabatlarının göstəriciləri fəaliyyətin bərpa olunduğu maliyyə ilinin əvvəlinə qədər dəyişməz qalır.
- Fərdi sahibkarların da maliyyə hesabatlarının məcburi qaydada müstəqil auditor tərəfindən yoxlanılmasına cəlb olunması barədə qanunvericilikdə hər hansı tələb mövcud deyildir. Həmçinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 oktyabr 2007-ci il tarixli 155 №-li qərarı ilə təsdiq edilmiş «Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri» barədə məlumatlarda dolayısı ilə adları açıqlanan məcburi auditin obyekti olan təsərrüfat subyektlərinin içərisində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər göstərilməmişdir. Ümumiyyətlə, məcburi auditə cəlb olunma kriteriyaları əsasən təşkilati-hüquqi formaya (MMC, ASC), fəaliyyət növünə (bank, sığorta və sair fəaliyyət) və mülkiyyət formasına (xarici investisiyalı) görə müəyyənləşdirilib. Fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyekti sadalanan kriteriyaların heç birinə uyğun gəlmir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində məcburi auditdən yayınmaya görə nəzərdə tutulan cərimələr vəzifəli şəxslər və hüquqi şəxslər üçün nəzərdə tutulub. Həmin Məcəllənin 16-cı maddəsində göstərilir ki, təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələri daşıyan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər də vəzifəli şəxs hesab edilirlər. Nəzərə alsaq ki, fəaliyyət göstərən fərdi sahibkarların əksəriyyəti işçi cəlb etmədən təkbaşına fəaliyyət göstərir, deməli, nəzərdə tutulan cərimələr onlara aid deyildir. Çoxsaylı işçi cəlb edərək fəaliyyət göstərən fərdi sahibkarlar və onların əməkdaşları isə vəzifəli şəxslər hesab edilə bilər, buna baxmayaraq, qanunvericilikdə konkret olaraq fərdi sahibkarların maliyyə hesabatlarının ümumi qaydada məcburi auditdən keçməsi nəzərdə tutulmamışdır. Lakin məhkəmə və digər dövlət orqanlarının öz səlahiyyətləri daxilində fərdi sahibkarların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması mümkündür.




# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

**4-cü MƏRHƏLƏ** *(davamı)*

Hörmətli oxucular, qəzetin əvvəlki sayında sınaq balansının hazırlanması qaydasının tam və aydın başa düşülməsi üçün sizə daha geniş praktik misal təqdim edilmişdir və həmin misal çərçivəsində təqdim olunan cədvəldə müəssisədə praktik olaraq ən çox baş verən əməliyyatların məzmunları və məbləğlər əks etdirilmişdir. Fərz edək ki, bütün əməliyyatları təsdiq edən ilkin sənədlər tam əldə edilmişdir, yəni uçotun aparılmasının 1-ci mərhələsi mühasib tərəfindən həyata keçirilmişdir. İndi isə uçotun aparılmasının 2-ci mərhələsini, yəni əməliyyat jurnalını işləmək lazımdır. İkili yazılış üsulu ilə həmin əməliyyatların əməliyyat jurnalında aşağıdakı kimi əks etdirilməsi tövsiyə olunur (əməliyyatlar ümumi xarakler daşıdığına görə, şərti olaraq tarixləri əks etdirməyəcəyik):

**ƏMƏLİYYAT JURNALI**

| Hesabın adı və əməliyyatın məzmunu | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|
| 221, «Kassa»<br>302, «Nizamnamə kapitalının ödənilməmiş hissəsi»<br>Təsisçidən nizamnamə kapitalı qoyuluşu kimi müəssisənin kassasına pul daxil olmuşdur | 30000 | 30000 |
| 222, «Bank - milli valyuta ilə cari hesab»<br>501, «Qısamüddətli bank kreditləri»<br>Müəssisənin milli valyutada bank hesabına bank krediti daxil olmuşdur (kredit alınmışdır) | 190000 | 190000 |
| 221, «Kassa»<br>222, «Bank - milli valyuta ilə cari hesab»<br>Milli valyutada bank hesabından kassaya nağd pul götürülmüşdür | 38000 | 38000 |
| 531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>222, «Bank - milli valyuta ilə cari hesab»<br>Milli valyutada bank hesabından bank xidməti haqqı silinmişdir (tutulmuşdur) | 190 | 190 |
| 721, «İnzibati xərclər»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Bank xidməti xərcləri hesablanmışdır | 190 | 190 |
| 111, «Torpaq, tikili və avadanlıqlar - dəyəri»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Malsatandan generator avadanlığı alınmışdır | 30000 | 30000 |
| 111, «Torpaq, tikili və avadanlıqlar - dəyəri»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Malsatandan kassa aparatı avadanlığı alınmışdır | 20000 | 20000 |
| 531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>222, «Bank - milli valyuta ilə cari hesab»<br>Alınmış generator və kassa aparatının dəyəri milli valyutada bank hesabından malsatana ödənilib | 50000 | 50000 |
| 205, «Mallar»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Malsatandan mallar alınmışdır (40000 ədəd, vahidinin qiyməti 4,00 manatdan) | 160000 | 160000 |
| 205, «Mallar»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Malsatandan eyni adlı mallar alınmışdır (50000 ədəd, vahidinin qiyməti 3,50 manatdan) | 175000 | 175000 |
| 205, «Mallar»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Malsatandan eyni adlı mallar alınmışdır (10000 ədəd, vahidinin qiyməti 5,00 manatdan) | 50000 | 50000 |
| 531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>222, «Bank - milli valyuta ilə cari hesab» Alınmış malların dəyərinin bir hissəsi<br>milli valyutada bank hesabından malsatana ödənilmişdir | 100000 | 100000 |
| 222, «Bank - milli valyuta ilə cari hesab»<br>211, «Alıcıların və sifarişçilərin qısamüddətli debitor borcları»<br>Alıcılardan milli valyutada bank hesabına pul daxil olmuşdur | 170000 | 170000 |
| 111, «Torpaq, tikili və avadanlıqlar - dəyəri»<br>531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>Malsatandan ofis üçün mebel alınmışdır | 25000 | 25000 |
| 531, «Malsatan və podratçılara qısamüddətli kreditor borcları»<br>221, «Kassa»<br>Alınmış ofis mebelinin dəyəri kassadan malsatana ödənilmişdir | 25000 | 25000 |
| 721, «İnzibati xərclər»<br>533, «Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borclar»<br>İnzibatı sahədə işləyən İşçilərə əməkhaqqı hesablanmışdır | 5000 | 5000 |
| 711, «Kommersiya xərclər»<br>533, «Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borclar»<br>Mağazada işləyən satıcılara əməkhaqqı hesablanmışdır | 13000 | 13000 |
| 533, «Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borclar»<br>521, «Vergi öhdəlikləri»<br>Əmək haqqından 14% gəlir vergisi tutulmuşdur (yəni dövlət büdcəsinə ödənilməli vergi) | 2520 | 2520 |
| 533, «Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borclar»<br>521, «Sosial sığorta və təminatlar üzrə öhdəliklər»<br>Əməkhaqqından 3% məcburi sosial sığorta haqqı tutulmuşdur | 540 | 540 |
| 721, «İnzibati xərclər»<br>521, «Sosial sığorta və təminatlar üzrə öhdəliklər»<br>İnziabti sahə üzrə məcburi sosial sığorta haqqı hesablanmışdır (əməkhaqqının 22 %-i qədər) | 1100 | 1100 |

**Davamı növbəti sayımızda**

## vergi təqvimi

**FEVRAL**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | 26 | 27 | 28 | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

17 fevral - «(5)»
20 fevral - «(1-1)», «3», «4», «8», «10.1», «10.2», «10.3»

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlə büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər**: ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.
Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Finlandiya təcrübəsi ilə tanışlıq

Azərbaycan Respublikasının Vergilər Nazirliyinin nümayəndələri təcrübə mübadiləsi məqsədilə Finlandiyanın Vergi Administrasiyasında olmuşlar. Ölkəmizin təmsilçilərinin nəzərinə çatdırılmışdır ki, 1991-ci ildə Finlandiya Vergi Administrasiyasında 11 regional, 213 yerli vergi orqanı və 7000 əməkdaş olduğuna baxmayaraq, əməliyyatların onlayn həyata keçirilməsi, vergi riskinin idarə edilməsi və xüsusilə də vergi ödəyicilərinə xidmət və onların məlumatlandırılmasının diqqət mərkəzində olması nəticəsində vergi orqanlarının sayı azalaraq 28-ə, əməkdaşların sayı isə azalaraq 5130-a çatdırılmışdır. Vergi Administrasiyası vergidən yayınma hallarını azaltmaq üçün vergi qanunvericiliyinin daha effektiv olmasını, vergilərin hesablanması və ödənilməsi prosesində səhv ehtimalının minimumlaşdırılması, yüksək vergi mədəniyyətinin formalaşdırılması istiqamətində tədbirlər görür. Səfər zamanı Azərbaycan Respublikasında vergi ödəyicilərinin maarifləndirmə vasitələri barədə məlumat verilmişdir. Respublikamızda vergi ödəyicilərinə xidmət işinin təhlil yönümlü olması finlandiyalı əməkaşlardı maraq doğurmuşdur. Təcrübə mübadiləsində Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Elçin Məmmədov və Xidmət idarəsinin rəisi Məhəmməd Yunusov iştirak etmişlər.

# İspaniya hökuməti gəlir vergisinin yeni dərəcəsi üzərində iş aparır

**Maliyyə naziri Kristobal Montoro bəyan etmişdir ki, İspaniya hökumətinin 2015-ci ildə tətbiq edəcəyi vergi islahatı gəlir vergisinin «tamamilə yeni» baza dərəcəsinin (IRPF) yaranmasına gətirib çıxaracaq.**

Onun sözlərinə görə, vergi islahatının aparılmasının başlıca səbəbi «yeni və daha yaxşı» vergilər tətbiq etməkdir. «IRPF ədalətli olacaq - ödəmə məbləği gəlirin səviyyəsinə və iqtisadi imkanlara əsaslanacaq, qonşuluğunda olduğumuz inkişaf etmiş ölkələrin standartlarına uyğunlaşdırılacaq», - K.Montoro bildirmişdir.

Nazirin sözlərinə görə, IRPF vergi islahatının əsas maddələrindən birini təşkil edəcək, lakin onun tətbiqi yeganə addım olmayacaq. O, mütəxəssilərin hökumətin sifariş verdiyi hesabatı hazırlamasına qədər gözləmək lazım gəldiyini demişdir: «Hökumətin əsas məqsədi budur ki, 2015-ci ildə vətəndaşlar gəlir vergisinin dərəcəsinin azaldığını hiss etsinlər və bu azalma sonrakı illərdə də davam etdirilsin».

K.Montoro onu da bəyan etmişdir ki, İspaniya hökuməti son vaxtlar əhəmiyyətli dərəcədə artırılmış ƏDV-ni yenidən qaldırmaq niyyətində deyildir. Yanacaq üçün verginin gələcəyi isə ekspertlərin hazırlamaqda olduqları hesabatdan asılıdır: «Bizim vergi sistemi əhatəsində olduğumuz ölkələrin sistemlərinə uyğun olmalıdır. Ölkəmiz Avropada yerləşir və yaxın gələcəkdə vergi sahəsində inteqrasiya bizim üçün müsbət hadisədir».



# Rusiyada ünvan səhvinə görə 50 min şirkət ləğv ediləcək

«İzvestiya» qəzetinin məlumatına əsasən, Federal Vergi Xidməti (FVX) ərazi inspeksiyalarına tövsiyə etmişdir ki, hüquqi şəxslərin qeydiyyata alındığı dövlət reyestrində göstərilmiş ünvanda yerləşməyən şirkətləri məhkəmə qaydası ilə ləğv etsinlər. FVX-dən göndərilən məktubda Ali Arbitraj Məhkəməsinin qətnaməsinə istinad edilmişdir. Həmin sənədə əsasən, 2013-cü il iyulun 30-dan bütün müfəttişlər öz xidməti yazışmalarını yalnız qeydiyyat reyestrində göstərilmiş ünvana göndərməlidirlər. Ona görə də ofis başqa yerdə olduqda şirkət müfəttişliyin məlumatlarını ala bilmir, göndərilən bildirişlər isə cavabsız qalır.

Ölkənin bəzi nüfuzlu ekspertləri atılacaq addımın kiçik və orta biznes üçün də problem yaradacağını qeyd edirlər. Rusiya statistika orqanlarının məlumatına görə, 2011-ci ildə ölkədəki 1,6 milyon hüquqi şəxs olan kiçik müəssisələrin 842 mini qeydiyyat ünvanında yerləşmirdi. Ekspertlər buna əsaslanıb belə mülahizə irəli sürürlər ki, yeni qaydanın tətbiqi ilə həmin şirkətlər üçün ləğv olunma riski yaranır.

FVX-dən verilən açıqlamada isə bildirilir ki, vicdanlı vergi ödəyiciləri üçün hər hansı təhlükədən danışmağa dəyməz. Çünki şirkətin ləğv edilməsi ilə bağlı tələb məhkəməyə göndərilməzdən əvvəl onun rəhbərliyinə ünvanda düzəliş edilməsi barədə xəbərdarlıq olunacaq. Xəbərdarlıq şirkət rəhbərliyinin ev ünvanına göndəriləcək və bundan sonra ünvan dəyişməkdən yayınma olduğu təqdirdə, şirkətin ləğvi ilə bağlı məhkəməyə müraciət ediləcək. FVX-nin mövqeyinə görə, tətbiq olunması tövsiyə edilən yenilik vergidən yayınan şirkətlər üçün nəzərdə tutulub və hazırda ölkədə ünvanını gizlətməklə vergidən yayınan 50 minə yaxın şirkət var.

Xarici ölkələrin təcrübəsi:

# Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının vergi sistemi

Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edir

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı tarixən formalaşmış 4 ölkədən - İngiltərə, Şotlandiya, Uels və Şimali İrlandiyadan ibarətdir. 2008-ci il dünya maliyyə böhranından sonra - 2012-ci ildə Birləşmiş Krallıqda ÜDM cəmi 0,1% artaraq 2,37 trln. ABŞ dolları (dünya üzrə 6-cı) olmuşdur. ÜDM-də xidmət sektoru 80,4%, sənaye 18,2% təşkil edir. Birləşmiş Krallıq adambaşına düşən ÜDM-in həcminə görə ($37 446) dünya üzrə ilk 40 ölkə arasındadır.

Qanunvericilikdə minimum əməkhaqqı 21 yaşı tamam olmuş şəxslər üçün bir iş saatı müqabilində 6,31 funt-sterlinq ($10,32) məbləğində təsbit edilmişdir.

Monarxiya adət-ənənələri kifayət qədər güclü olan Birləşmiş Krallıqda hökumətə Ülyahəzrət Kraliçanın Gəlir və Gömrük orqanı (Her Majesty`s Revenue and Customs) daxildir, əsas funksiyası vergilərin və gömrük rüsumlarının toplanması ilə yanaşı, minimum əməkhaqqının tənzimlənməsidir. Müstəqil fəaliyyət göstərən Gəlir və Gömrük orqanı öz fəaliyyətini funksional seqment üzrə qurur və gəlir vergisi, mənfəət vergisi, ƏDV, mədən vergisi, aksizlər, əmlak vergisinin və gömrük rüsumlarının toplanması ilə məşğul olur. Vergi əməkdaşlarının sayı 67.074 nəfərdir.

2012-ci ildə ümumi vergi daxilolmaları $769,9 mlrd. (o cümlədən birbaşa vergilər 41,4%, dolayı vergilər 33,5%, sosial ayırmalar 21%, digər 4,1%) olmuşdur. Birləşmiş Krallıqda ümumi bəyannamə sistemi mövcuddur. Vergi ödəyicilərinin sayı 32 milyondur və əhalinin sayında onların xüsusi çəkisi 50,2% təşkil edir.

Mənfəət vergisi: Mənfəət vergisi üzrə daxilolamalar 2012-ci ildə ümumi vergi daxilolmalarının 10%-ni təşkil etmişdir.

Birləşmiş Krallıqda «Müəssisələr haqqında» Qanuna uyğun olaraq, təsis edilmiş müəssisələr mənfəət vergisi məqsədləri üçün vergi ödəyicisi hesab olunur. Bundan əlavə, ayrıca hüquqi şəxs olmayan assosiasiyalar, mənzil-tikinti cəmiyyətləri, qarşılıqlı sığorta təşkilatları, dövlət sənayesi, kommunal xidmətlər göstərən təşkilatlar və digər dövlət qurumları da mənfəət vergisi ödəyiciləri hesab olunur. Qeyri-rezident müəssisə və təşkilatlar Birləşmiş Krallıqdakı daimi nümayəndəlikləri ilə bağlı əldə etdiyi mənfəət üzrə mənfəət vergisi ödəyiciləridir. Xeyriyyə təşkilatları sahibkarlıq fəaliyyəti ilə məşğul olmadıqları halda, mənfəət vergisi məqsədləri üçün vergi ödəyicisi hesab edilmirlər.

Ümumiyyətlə, sahibkarlıq gəliri, bir sıra istisnalar olmaqla, faktiki alış qiymətinə əsasən hesablanır.

Əgər xərclər gəlirin əldə edilməsi ilə bağlı çəkilmişdirsə, müstəsna olaraq sahibkarlıq fəaliyyəti ilə bağlıdırsa və qanunla qadağan edilməyibsə, gəlirdən çıxıla bilər. Gəlirdən çıxılan xərclərin məhdudlaşdırılması müddəalarına əsasən, kiçik biznes hədiyyələrinin verilməsi və biznes əyləncələrinin təşkili xərcləri yalnız işçilərə münasibətdə çəkildikdə gəlirdən çıxıla bilər.

2013-cü il maliyyə ili üçün (1 aprel 2013-cü ildən 31 mart 2014-cü ilədək) mənfəət ver-




Birləşmiş Krallıqda təsis edilən təşkilatlar istənilən halda rezident hesab olunurlar. Digər müəssisə və ya təşkilatların mərkəzi idarəetmə yeri və ya nəzarət prosesləri Birləşmiş Krallıqda baş verdiyi təqdirdə, rezident hesab olunurlar. Ülyahəzrətin Gəlir və Gömrük orqanı müəssisənin faktiki fəaliyyət istiqaməti və yerini müəyyən etmək məqsədilə onun idarəetmə və nəzarət mərkəzinə baxış keçirə bilər.

Rezident müəssisələr bütün dünya üzrə əldə etdikləri mənfəətdən vergi ödəyirlər. Buna baxmayaraq, rezident müəssisə xaricdə yerləşən daimi nümayəndəliyi ilə bağlı mənfəətini vergi tutulan mənfəətindən çıxa bilər. Bu zaman daimi nümayəndəliklə bağlı zərərin çıxılmasına yol verilmir.

gisinin dərəcəsi 23% müəyyənləşdirilib. Əsas dərəcə bütün qapalı investisiya-holdinq müəssisələrinə və 1,5 mln. funt-sterlinqdən ($2 452 620) artıq vergi tutulan mənfəəti olan digər müəssisələrə aid edilir. 300 min funt sterlinqə ($490 524) qədər mənfəəti olan müəssisələrə 20% azaldılmış dərəcə tətbiq edilə bilər. «2013-cü ildə təsdiq edilmiş Maliyyə büdcə layihəsi»ndə 2014-cü maliyyə ili üzrə mənfəət vergisinin dərəcəsinin 21%, 2015-ci il maliyyə ili üzrə (1 aprel 2015-ci ildən) mənfəət vergisi dərəcəsinin 20%-ə endiriləcəyi şərti qoyulmuşdur.

Şimal dənizi neft-qaz xüsusi zonalarında mənfəət vergisinin dərəcəsi 30%-dir.

**Davamı növbəti sayımızda**

krossvord



**Yuxarıdan aşağı:**

1.Ölkəmizin şimalında rayon; 2.Qədimdən dərman maddəsi kimi işlədilən, bronxit, həzm sisteminin pozulması və yuxusuzluq xəstəliklərinin müalicəsində istifadə olunur; 3.Ürəkdə qan dövranı ilə əlaqədar arteriya divarlarının təkanvari rəqsi; 4.Qədim yunan mifologiyasında titan; 6.Alkanlar sinfindən doymuş karbohidrogen (C8H18); 7.Rusiya Federasiyasında şəhər; 8.İtaliyanın cənubunda tarixi şəhər, Siciliya muxtar vilayətinin mərkəzi; 13.Proqramlaşdırma dili; 14.Ölkəmizin şimal-qərbində rayon; 16.Qarabağ xanı, Səməd Vurğunun «Vaqif» dramının əsas personajlarından biri; 17.Rəng; 19.Tropik meyvə; 21.Çox sadə aromatik spirt (C6H5OH); 22.İşçilərin çalışdığı otaq, qərargah.

**Soldan sağa:**

1.«Kitabi-Dədə Qorqud» dastanında personaj; 5.2014 - Qış Olimpiya Oyunlarının paytaxtı; 9.Beysbola bənzər komanda oyunu; 10.Ukrayna ərazisində, Krım yarımadasında beynəlxalq uşaq mərkəzi; 11.ABŞ aktyorunun və boksçusunun soyadı. «Günahlar şəhəri» bədii filminin (2005) baş qəhrəmanlarından biri; 12.Birləşmiş kompüter şəbəkələrinin ümumdünya sistemi; 14. İngilis lüks avtomobil istehsalçısı; 15.Bir atom azot və üç atom hidrogeni özündə birləşdirən qaz; 18.Çıxılması çətin olan dolaşıq yollardan ibarət struktur; 20.Qərbi Avropada zadəgan titulu; 23.Yapon modelyer və dizayneri. Geyim, aksesuar və parfümeriya istehsalçısı; 24.İranda şəhər; 25.Qohumluq dərəcəsi; 26.SSRİ-də mövcud olmuş siyasi gənclər təşkilatı.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qarde; 2.Refleks; 3.Naib; 4.İnquri; 6.Alibi; 7.Alpamış; 8.Novator; 13.Sarduri; 14.Moskviç; 16.Bilyard; 17.Erebus; 19.Arqut; 21.Teatr; 22.Aişə.

**Soldan sağa:** 1.Qərənfil; 5.Qana; 9.Raftinq; 10.Olimp; 11.Egey; 12.Urbanizm; 14.Mossad; 15.Bozbaş; 18.Standart; 20.Ələt; 23.Vüqar *(Həşimov)*; 24.Briqada; 25.Çita; 26.İsgəndər.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Güləşçilərimiz Beynəlxalq turnirdə beş medal qazanıblar

*Fevralın 2-də İstanbulda Vehbi Emrenin xatirəsinə həsr olunmuş güləş üzrə 32-ci Beynəlxalq turnirə yekun vurulmuşdur.*

Azərbaycan Güləş Federasiyasından aldığımız məlumata görə, Ahmet Cömert Spor Salonunda keçirilən turnirdə yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandası ilə yanaşı Türkiyə, Qazaxıstan, Ukrayna, Rusiya, Belarus, Bolqarıstan, Gürcüstan, Moldova, Litva, Özbəkistan, İran, Livan, Rumıniya və Qırğızıstandan olan güləşçilər də mübarizə aparmışlar.

Turnirin ilk günündə yığma komandamız 1 qızıl və 2 bürünc medala sahib olmuşdur. Rəsul Çunayev (71 kq) qızıl, Rüstəm Əliyev (71 kq) və Saman Təhmasibi (98 kq) bürünc medal qazanmışlar.

Turnirin ikinci günündə 66, 75, 85 və 130 kiloqram çəki dərəcəsində pəhləvanlar mübarizəyə qoşulmuşlar. Güləşçilərimiz günü 1 gümüş və 1 bürünc medalla başa vurmuşlar. Yarışda 85 kiloqram çəki dərəcəsində mübarizə aparan Şəhriyar Məmmədov finala qədər maneəsiz irəliləmişdir. Ardıcıl olaraq türkiyəli və özbəkistanlı rəqiblərini məğlub edən güləşçimiz finalda Belarus təmsilçisi ilə qarşılaşmışdır. Görüşdə məğlub olan güləşçimiz gümüş medalla kifayətlənmişdir.

Milli komandamızın üzvü Elvin Mürsəliyev (75 kq) ilk görüşünü qələbə ilə başa vursa da, ikinci görüşdə məğlub olmuşdur. Rəqibinin finala çıxması ilə təsəlliverici görüşə qatılmaq şansı qazanan güləşçimiz bu imkanı yaxşı dəyərləndirmişdir. Bürünc medal uğrunda görüşdə Elvin Mürsəliyev İran güləşçisi ilə qarşılaşmışdır. Minimal hesablı qələbə qazanan həmyerlimiz bürünc medala sahib olmuşdur.

Ümumilikdə 1 qızıl, 1 gümüş və 3 bürünc medal qazanan güləşçilərimiz 39 xal toplayaraq komanda hesabında üçüncü yeri tutmuşlar. Türkiyə millisi birinci, Belarus yığması isə ikinci sırada qərarlaşmışdır.

# Braziliyada Vüqar Həşimovun adına şahmat komandası yaradıldı

*Beynəlxalq qrossmeyster Vüqar Həşimovun vəfatı təkcə Azərbaycan deyil, bütün şahmat dünyası üçün böyük itki hesab olunur. Braziliyanın Para ştatının Belen şəhərində keçirilən «Campeonato Paraense de Xadrez Por Equipes» şahmat turniri bunun bariz nümunəsidir.*



Braziliya Şahmat Federasiyasının yaydığı məlumata görə, 6 komandanın iştirakı ilə sürətli şahmat üzrə turnirdə Vüqar Həşimovun xatirəsinə hörmət əlaməti olaraq «Həşimov» adlı komanda da mübarizə aparmışdır.

Azərbaycanlı şahmatçının adını daşıyan komandanın tərkibində Joao Paulo Mendes (2126), Rodriqo Çaves da Silva (2121) və Genaro Xose Melo de Amorim (2030) iştirak etmişlər. Turnirin direktoru Paulo Cohen Farias olmuşdur.

Bu hadisə Avropa çempionu, dəfələrlə beynəlxalq şahmat olimpiadalarının mükafatçısı olmuş Vüqar Həşimova göstərilən böyük ehtiramın əlaməti olmaqla yanaşı, Azərbaycanın dünyada inkişaf etmiş idman ölkəsi kimi tanınmasının daha bir təzahürüdür.

# Azərbaycan velosipedçilərinin növbəti uğuru

*Yeni Zelandiyada keçirilən çoxgünlük «Cycle Classic» turu başa çatıb. Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası «Synergy Baku»nun almaniyalı üzvü Daniel Klemme yarışın 2-ci mərhələsində uğurlu nəticə göstərib. O, 143 km-lik mərhələnin qalibi, avstraliyanın «Drapac Professional Cycling» komandasının hollandiyalı üzvü Vippert Viterdən cüzi fərqlə geri qalıb və finişi 2-ci keçib.*




Xatırladaq ki, Daniel Klemme ilk mərhələdə 95 iştirakçı arasında 12-ci olmuşdu. Komandamızın digər üzvü Maykl Şvayzer isə sprinter maykasını əldə edib.

Yarışın üçüncü günündə iştirakçılar 154.5 km məsafə qət ediblər. Bu mərhələdə Avstraliyanın «Avanti Cycling Team» komandasının üzvü Cons Brenton 3 saat 51 dəqiqə 17 saniyə göstərici ilə finiş xəttini birinci keçib. «Synergy Baku»nun üzvlərindən Patrik Leyn 3-cü mərhələdə 31-ci olub və ümumi sıralanmada liderə 21 saniyə uduzmaqla 20-ci yerdə qərarlaşıb. Kristof Şvayzer isə 3-cü mərhələdə 32-ci nəticə göstərib və 3 mərhələdən sonra liderdən 22 saniyə geri qalmaqla 22-ci olub. Maykl Şvayzerə gəlincə, o, 3 mərhələdən sonra ən yaxşı sprinterlər siyahısında ilk pillədə qərarlaşıb.

Turun dördüncü günündə iştirakçılar 136,4 km məsafə qət ediblər. Bu mərhələdə Avstraliyanın «Drapac Professional Cycling» komandasının hollandiyalı nümayəndəsi Vuter Vippert 3 saat 13 dəqiqə 3 saniyə nəticə ilə finiş xəttini birinci keçib. «Synergy Baku»nun üzvlərindən Kristof və Maykl Şvayzer qardaşları liderdən cüzi fərqlə geri qalmaqla, müvafiq olaraq, 4-cü və 6-cı nəticə göstəriblər. Patrik Leyn 21-ci, Daniel Klemme isə 24-cü olub.

Turnirin ikinci mərhələsində finiş xəttini ikinci keçən Daniel Klemme, təəssüf ki, sonuncu - beşinci mərhələdə zədə səbəbindən mübarizəni yarımçıq dayandırmaq məcburiyyətində qalıb. Eyni zamanda, səhhətindəki problemlər Patrik Leynin də yalnız 19-cu nəticə göstərməsinə səbəb olub.

«Synergy Baku»nun üzvü Maykl Şvayzer yeni ildə komandamız üçün ilk uğura imza atıb - o, ən yaxşı sprinterlər siyahısında üstünlüyünü sonadək saxlayıb və birinci yerə çıxaraq «yaşıl mayka»ya layıq görülüb.

mozaika

## Pikassonun gizli əsəri

madaniyyat

Bosniyanın kiçik Bosanska-Dubitsa şəhərciyindəki Xalq kitabxanasının işçilərinin dediklərinə görə, XX əsrin ən məşhur rəssamlarından olan Pablo Pikassonun əsəri artıq uzun illərdir ki, burada gizli saxlanılır. Əlbəttə, ekspertlər hələ əsərin orijinal olub-olmadığını müəyyənləşdirməlidirlər, çünki rəsmdə imza yoxdur, yalnız onun yaranma tarixi vardır. Lakin işçilər haqlı olduqlarına şübhə etmirlər. Dediklərinə görə, rəsmi onlara xalq qəhrəmanı Boşko Şileqoviç vermişdir. O, bu əsəri 1964-cü ildə Parisdə şəxsən rəssamın özündən hədiyyə qəbul etmişdir.

Rəsm keçən əsrin 80-ci illərinin sonundan kitabxananın seyfində saxlanılır: əsərin təhlükəsizliyini təmin etmək üçün əməkdaşların texniki imkanları olmadığından, onu sadəcə burada gizlətmişlər.

«Rossiya 24» televiziya kanalı xəbər verir ki, ekspertiza əsərin orijinal olduğunu təsdiqləsə, onu ictimaiyyətə təqdim edəcəklər: beləliklə, böyük ispan rəssamı özü də bilmədən bu kiçik Bosniya şəhərciyini məşhurlaşdıra bilər.

## Ev heyvanları üçün «ağıllı» yemək qabı

ixtira

*«Grishin Robotics» şirkəti ev heyvanları üçün «Pet-Net» robotunun yaradılmasına 1,125 milyon dollar sərmayə qoymuşdur. Bu vəsait işçi heyətin genişləndirilməsinə, yeni «SmartFeeder» məhsulunun hazırlanmasına və müvafiq qurğuların yaradılmasına yönəldiləcəkdir.*

«Smart Feeder» - ev heyvanını məsafədən yedirmək üçün nəzərdə tutulmuş qurğudur. O, eyni zamanda ev heyvanının yeməyinə nəzarət edir, onun yaşından və növündən asılı olaraq rasionunu müəyyənləşdirir. Gələcəkdə robot ev heyvanı haqda məlumatları analiz edəcək və alqoritmləri düzəldəcəkdir.



Heyvanın sahibi yemək statistikasına baxaraq onu digər «Pet-Net» istifadəçilərinin göstəriciləri ilə müqayisə edə biləcəkdir. Qurğu öz sahibinə yeməyin bitməsi haqda məlumat göndərəcək və o, birbaşa servisin interfeysindən sifariş edə biləcəkdir.

Robot xüsusi dözümlü materialdan düzəldilmiş və artıq onu dünya üzrə 10 min nəfər sifariş etmişdir. Satışın bu ilin ortalarında başlanacağı gözlənilir. Hazırda qurğunu endirimlə 199 dollara almaq olar, gələcəkdə isə onun qiyməti 249 dollar olacaqdır. Sərmayədarlar bildirmişlər ki, ev heyvanlarına qulluq üzrə dünya bazarının həcmi 100 milyard dollara yaxın təşkil edir.



ELAN

**«Vergilər» qəzetinə 2014-cü il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **20 manat 80 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22

maraqlı



## Velosipedlə Gürcüstandan Braziliyaya

Ginnes rekordçusu, 75 yaşlı Cumber Lejava bu il iyulun sonunda velosipedlə Braziliyaya yola düşəcəkdir. O, 1996, 2004, 2008 və 2012-ci illərdə Olimpiya oyunları keçirilən ölkələrə Tbilisidən velosipedlə getmişdir. Veteran idmançı 2016-cı ildə Brazilyada keçiriləcək Olimpiya Oyunlarına da velosipedlə gedəcəyini bildirmişdir.

Cumber Lejava səyahətinin marşrutunu açıqlamış, Rusiya, Skandinaviya ölkələri, İslandiya, Kanada və ABŞ-dan keçəcəyini demişdir.

İxtisasca mühəndis olan Cumber Lejava 1993-2002-ci illərdə velosipedlə dünya səyahətinə çıxmış, bütün qitə və materiklərdən, o cümlədən Antarktidadan keçmişdir. 1999-cu ildə UNESCO ona «Dünyanın vətəndaşı» adını vermiş, 2002-ci ildə isə Gürcüstanda «İlin adamı» adına layiq görülmüşdür.

## Toz və su keçirməyən planşet

texnologiya

*«Bett 2014» təhsil texnologiyalarının sərgisi çərçivəsində «Intel» şirkəti «Intel Education Tablet» adlı yeni məktəb planşeti və «Intel Classmate PC» netbukunu təqdim etmişdir. Aparatların konstruksiyası möhkəmdir, toz və su keçirmir.*

«Intel Classmate PC» netbuku «Intel Celeron N2806» prosessoru ilə təchiz edilmişdir. Aparat «Windows 8.1» əməliyyat sistemi ilə işləyir. Sensor ekranlı qurğu fırlanan kameraya malikdir. Əməli yaddaşın həcmi 4 qiqabayt təşkil edir.

Planşet «Android 4.2» platforması ilə işləyir, «Intel Atom Z2520» ikinüvəli prosessoru ilə təchiz edilmişdir. 10 düymlük ekranın təsvir ölçüsü 1280x800 piksel təşkil edir, qurğu 1,2 və 5 meqapiksellik kameralarla təchiz olunmuşdur. Planşet «3G» şəbəkələrini dəstəkləyir. Yeni qurğuların avtonom iş vaxtı 12 saat təşkil edir ki, məktəblilər ondan bütün günü istifadə edə bilsinlər. Əməli yaddaşın həcmi 2 QB, daşıyıcıda isə 32 QB təşkil edir.



**Müdriklər deyib ki...**



***«İnsanın ləyaqəti onun öz məqsədinə doğru hansı yolla getdiyi ilə ölçülür, məqsədə çatıb-çatmamaq isə sonrakı məsələdir».***

*Abay Kunanbayev (1845-1904)*